QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 169 (5400) 20 **sentyabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev BMT-nin baş qərargahında ümumi müzakirələrin açılışında iştirak edib




Səh 2

**“Əsrin müqaviləsi”ndən 23 il ötür**



8

**Görkəmli şərqşünas-alim Aida İmanquliyevanın xatirəsi anılıb**



5

**Rövnəq Abdullayev: “Azəri-Çıraq-Günəşli” yataqları üzrə yeni Saziş bu ildən qüvvəyə minəcək**



5

**Azərbaycan Dünya Bankı ilə güclü tərəfdaşlıq qurub**



6

**Müdafiə naziri cəbhəboyu zonada yerləşən yeni hərbi hissənin açılışını edib**



3

**Elman Rüstəmov: “Manatın məzənnəsi üçün hər hansı risklər görmürük”**



3

7

**Yeni Dövlət Proqramının təsdiq olunması dövlətimizin gənc nəslin inkişafına diqqətinin parlaq ifadəsidir**



10

**Azərbaycanda genişmiqyaslı təlimlər başlayıb**



16

**Azərbaycan millisinin üzvü erməni cüdoçuya qalib gələrək Avropa çempionu olub**



# Prezident İlham Əliyev BMT-nin baş qərargahında ümumi müzakirələrin açılışında iştirak edib




## Rəsmi xronika

Prezident İlham Əliyev Aleksandr Plemakova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, mülki aviasiya sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Aleksandr Pavloviç Plemakova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin. Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

***

Prezident İlham Əliyev Azərbaycanın neft sənayesi işçilərinə fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.





***Sentyabrın 19-da Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının baş qərargahında ümumi müzakirələrin açılışı olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva tədbirdə iştirak ediblər.***

Ümumi müzakirələrin açılışında çıxış edən BMT-nin Baş katibi Antonio Qutтереş hazırda dünyada bir çox problemlərin olduğunu vurğuladı, ölkələr arasında etibar və etimadın aşağı düşdüyünü bildirdi. Qaçqınların sayının artması, miqrasiyanın çağırışları, insan alveri, iqlim dəyişikliyi və digər mövcud qlobal problemlərə toxunan BMT-nin Baş katibi əminliyini ifadə etdi ki, yalnız birlikdə sülhə nail olmaq və qarşılıqlı etimadı bərpa etmək mümkündür.



BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının prezidenti Miroslav Layçak dünyada davam edən münaqişələrin ən çox sadə insanlara ziyan vurduğunu dedi. O, yoxsulluq, iqlim dəyişikliyi, beynəlxalq terrorizmin çağırışları ilə bağlı fikirlərini bölüşdü, bu problemlərin insanların həyatına birbaşa təsir etdiyini vurğuladı. Miroslav Layçak qeyd etdi ki, sülhün təmin edilməsi və müharibələrin qarşısının alınması BMT-nin fəaliyyətinin əsas istiqamətlərindən biri olmalıdır.

Sonra Braziliya Federativ Respublikasının Prezidenti Mişel Temer müzakirə olunan mövzularla bağlı fikirlərini bölüşdü.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp BMT-nin fəaliyyətinin daha da səmərəli olmasının vacibliyinə toxundu. O, vurğuladı ki, dövlətlər xalqların maraqlarını və gələcəyini müdafiə etməlidir. ABŞ Prezidenti dedi ki, biz birlikdə çalışmalıyıq və təhdidlərə qarşı bir olmalıyıq. Donald Tramp Türkiyə, İordaniya və Livana Suriyadan olan qaçqınları qəbul etdiklərinə görə minnətdarlığını da bildirdi.

# İlham Əliyev: Mən çalışıram və çalışacağam ki, Azərbaycan xalqı yaxşı yaşasın

*"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 43-cü cildi çapdan çıxıb*

***"Azərbaycan bölgədə və dünyada öz mövqelərini möhkəmləndirə bilmişdir. Xarici siyasətdə uğurlarımızı təmin edən nədir? Daxildə gedən iş. Əgər daxildə işlər yaxşı səviyyədə qurulmayıbsa, istənilən ölkənin xarici siyasəti uğurlu ola bilməz. Daxildə möhkəm təməl üzərində qurulan iqtisadiyyat, sosial rifah, inkişaf, sabitlik, xalqla iqtidar arasında birlik - budur bizim ölkə kimi beynəlxalq mövqelərimizi gücləndirən amillər. O ki qaldı daxili işlərə, mən çalışıram və çalışacağam ki, Azərbaycan xalqı yaxşı yaşasın. Bütün məsələlər öz həllini tapsın. Sosial, iqtisadi, mədəni - bütün sahələrdə gözəl işlər görülsün. Biz bu gözəl işləri gözəlləşən şəhərlərimizin gözəlləşən simasında görürük".***




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 43-cü cildində yer alan bu fikirləri dövlətimizin başçısı 2010-cu il noyabrın 1-də Saatlı rayonunun Yeni Novruzlu kəndində tikilmiş yaşayış evləri ilə tanış olarkən söyləyib.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin yenicə çapdan çıxmış 43-cü kitabı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Devid Lidinqtonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündən bəhs edən informasiya ilə başlayır. Bu nəşrə daxil olan materiallar 2010-cu ilin oktyabrından dekabr ayınadək olan dövrü əhatə edir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin yeni nəşrində dövlətimizin başçısının Rusiyaya işgüzar, Ukraynaya rəsmi səfərlərinə, NATO-nun Portuqaliyada keçirilən zirvə toplantısında, ATƏT-in Qazaxıstanda keçirilən VII Sammitində, İqtisadi Əməkdaşlıq Təşkilatının Türkiyədə keçirilən XI Sammitində iştirakına, bu tədbirlər çərçivəsində bir sıra dövlət və hökumət başçıları ilə apardığı danışıqlara dair materiallar toplanıb.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarının qayəsini Ermənistanın işğalçılıq siyasəti, regionun inkişafına əngəl olan Dağlıq Qarabağ problemi və bu problemin həlli yolları təşkil edir.

Dövlətimizin başçısının Azərbaycana səfər etmiş İran, Rusiya, Qazaxıstan və Türkmənistan prezidentləri ilə apardığı danışıqlara, enerji və qeyri-neft sektoru üzrə imzalanmış müqavilələrə dair informasiyalar da bu kitabda dərc olunub.

Çoxcildliyin 43-cü kitabında Prezident İlham Əliyevin paytaxtımızda keçirilən beynəlxalq tədbirlərdə iştirakı, Türkiyə, Rusiya, Almaniya, Polşa, Türkmənistan, Monteneqro, Böyük Britaniya və digər dövlətlərdən, həmçinin mötəbər təşkilatlardan ölkəmizə səfər etmiş yüksək vəzifəli şəxslərlə görüşləri barədə materiallar verilib.

Bundan başqa, kitabda Azərbaycan Prezidentinin Salyan, Sabirabad, Saatlı, İmişli, Yevlax, Füzuli, Ağdam rayonlarına səfərlərinə, ictimaiyyət nümayəndələri ilə görüşlərinə, paytaxtımızda yenidənqurma işləri ilə tanışlığına dair materiallar, regionların sosial-iqtisadi inkişaf proqramının icrası ilə bağlı çıxışları, nitqləri, kütləvi informasiya vasitələrinə müsahibələri və bəyanatları yer alıb.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 43-cü cildin hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən yeni hərbi hissənin açılışını edib





***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən yeni hərbi hissənin açılışında iştirak ediblər.

Nazirliyin rəhbərliyi istifadəyə verilən yeni qərargah, əsgər yataqxanaları, tədris kompleksi, sıra meydanı, tibb məntəqəsi, idman şəhərciyi, eləcə də digər xidməti və inzibati obyektlər ilə tanış olaraq müvafiq tapşırıqlar verib.

## Ədliyyə naziri tərəfindən Samux rayonunda vətəndaşların qəbulu keçiriləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, ədliyyə naziri Fikrət Məmmədov tərəfindən sentyabrın 22-də Samux rayonunda vətəndaşların qəbulu keçiriləcək. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Samux rayonu Heydər Əliyev Mərkəzində (ünvan: Samux şəhəri, Heydər Əliyev prospekti 1) keçiriləcək qəbulda Samux, Yevlax rayonlarından və Naftalan şəhərindən olan vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılacaq.



Vətəndaşlar qəbula Gəncə regional ədliyyə idarəsi (ünvan: Gəncə şəhəri, Yeni Gəncə qəsəbəsi, 28 may küçəsi; əlaqə telefonu: (022) 254-48-15,(022) 254-48-21), habelə Ədliyyə Nazirliyinin 510-10-01 (əlavə 2104), 055-925-37-41 nömrəli telefonları, contact@justice.gov.az elektron poçt ünvanı vasitəsilə, eləcə də Samux rayonu Heydər Əliyev Mərkəzində yazıla bilərlər.

Eyni zamanda, vətəndaşların rahatlığı üçün ədliyyə nazirinin həmin gün keçiriləcək qəbuluna elektron qaydada birbaşa yazılmaq imkanı yaradılıb. Bu məqsədlə Ədliyyə Nazirliyinin elektron xidmətlər portalına (www.exidmet.justice.gov.az) müraciət etmək lazımdır.

## Samir Şərifov: "2018-ci ilin əvvəlində Azərbaycan Beynəlxalq Bankının özəlləşdirilməsi prosesi başlaya bilər"



Prezident İlham Əliyevin Sərəncamına əsasən Azərbaycan Beynəlxalq Bankının (ABB) restrukturizasiyası aparılır. Restrukturizasiya prosesi başa çatdıqdan sonra bankın özəlləşdirilməsi məsələsi gündəliyə çıxarılacaq. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Dünya Bankına üzvlüyünün 25-ci ildönümü münasibətilə Bakıda keçirilən tədbirdə maliyyə naziri Samir Şərifov jurnalistlərə açıqlamasında bildirib. Nazir bildirib ki, artıq dövlət bankının özəlləşdirilməsi öncəsi tədbirləri həyata keçirmək olar: "Məhz buna görə, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Azərbaycana səfəri çərçivəsində bu məsələ ilə maraqlandı. Adıçəkilən maliyyə təşkilatı bu prosesdə iştirak etmək üçün maraq göstərib. Bu müzakirələri gələcəkdə də davam etdirəcəyik".

Hər hansı başqa beynəlxalq maliyyə qurumunun ABB-nin özəlləşdirilməsinə maraq göstərməsinə gəlincə isə, nazir bildirib ki, hələlik bu barədə danışmaq çox tezdir. Samir Şərifov bildirib ki, özəlləşdirilmə prosesinə təcrübəli və beynəlxalq arenada nüfuzu olan məsləhətçilər cəlb ediləcək: "Bunun əsasında bankın özəlləşdirilmə strategiyası formalaşacaq və bundan sonra həmin strategiya hökumət tərəfindən qəbul edildiyi təqdirdə özəlləşdirilməyə açıq elan olunacaq. 2018-ci ilin əvvəlində biz bu proseslərə başlaya bilərik".

## Elman Rüstəmov: "Manatın məzənnəsi üçün hər hansı risklər görmürük"



Maliyyə Sabitliyi Şurası tərəfindən verilmiş qərarlar, formalaşmış makroiqtisadi çərçivəyə əsasən deyə bilərik ki, biz manatın gələcək məzənnəsi üçün hər hansı risklər görmürük. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov deyib.

Manatın məzənnəsinin üzən məzənnə rejimində formalaşdığını xatırladan E.Rüstəmov bildirib ki, tədiyyə balansı müsbət olanda manatın möhkəmlənməsi müşahidə edilir: "Manatın məzənnəsini bazar həll edir. Sadəcə olaraq hökumət, Mərkəzi Bank düşünməlidir ki, bütövlükdə manatın möhkəmlənməsi nə dərəcədə ölkədə həyata keçirilən iqtisadi strategiyaya uyğundur, xüsusilə də ixracın şaxələnməsi, ixracın dəstəklənməsi nə dərəcədə doğrudur. Hələlik biz əsaslı qorxu görmürük", - deyə E.Rüstəmov əlavə edib.

# 2017-2021-ci illərdə 985 hektar yeni çay plantasiyalarının salınması nəzərdə tutulur

*Prezident İlham Əliyev: "Keçən il 1100 ton çay ixrac edilib və ölkəmizə 6 milyon 100 min dollar məbləğində valyuta gəlib"*



***Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya qoyduğu vəzifə ondan ibarətdir ki, ənənəvi kənd təsərrüfatı sahələrinin bərpası və dirçəldilməsi prosesi növbəti illərdə daha da sürətlə getsin. Həmin sahələrdən biri də vaxtilə baxımsız vəziyyətdə qalmış çayçılıqdır.***

Hazırda respublikada çayın ümumi əkin sahəsi 1016 hektardır. Bundan da 664 hektarı bar verir. Əkin sahələrinin 94 faizi, istehsalın isə 94,7 faizi Lənkəran iqtisadi rayonunun payına düşür. Ötən il min ton çay istehsal edilib, 12 hektar yeni çay plantasiyaları salınıb, hər hektardan orta məhsuldarlıq 14 sentner təşkil edib. 2017-2021-ci illərdə 985 hektar yeni çay plantasiyalarının salınması nəzərdə tutulur. Hazırda isə respublikamızda illik emal gücü 24,3 min ton olan 10 çay emalı fabriki fəaliyyət göstərir. Çayçılıqla məşğul olan 14 sahibkara 10,7 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına 450 yeni iş yeri yaradılıb.

Azərbaycanda qeyri-neft sektorunun inkişafına göstərilən dövlət qayğısı, məhsul istehsalçılarına verilən subsidiyalar çayçılığın inkişafı üçün də geniş imkanlar yaradıb. Bu sahənin daha da inkişaf etdirilməsi üçün "Azərbaycan Respublikasında 2017-2026-cı illərdə çayçılığın inkişafına dair Dövlət Proqramı"nın layihəsi işlənib-hazırlanır. Dövlət Proqramının həyata keçirilməsi nəticəsində çayçılığın inkişaf etdirilməsi ilə bağlı görülən işlər sürətlənəcək, çay plantasiyalarının əkin sahəsi xeyli artacaq. Ötən il ölkə üzrə min ton çay istehsal edilib, 12 hektar ərazidə yeni çay plantasiyaları salınıb. Bundan başqa, çayçılığın inkişafı ilə bağlı sahibkarlara dövlət tərəfindən güzəştli kreditlər də verilir. Respublika üzrə mövcud 1016 hektar çay sahəsinin 568 hektarı Lənkəran, 345 hektarı Astara, 60 hektarı Zaqatala və 43 hektarı Masallı rayonlarının ərazisindədir. Bu ilin iyul ayınadək mövcud çay sahələrindən 444,1 ton yaşıl çay yarpağı istehsal olunub və hazırda bu proses davam etdirilir. Lənkəran rayonu ərazisində 568 hektar çay sahəsinin 289 hektarı "Astaraçay" MMC-yə məxsusdur.



"Astaraçay" MMC 2010-cu ildə təsis edilib. Quru çay istehsalı üçün istifadə edilən xammal yalnız Azərbaycanın subtropik bölgəsi olan Astara və Lənkəran rayonlarındakı plantasiyalardan tədarük olunur. Bu plantasiyalarda əkilən "Kolxida" çay toxumları Gürcüstanın Batumi şəhərinin Çayçılıq Elmi-Tədqiqat İnstitutunun tədris-təcrübə sahəsindən alınıb. Toxumlar sınaqdan keçirilib, yerli şəraitə uyğunlaşdırılaraq əkilib.



Bununla yanaşı, "Yaşıl Çay" MMC də yaradılan şəraitdən səmərəli istifadə edir. Fermer təsərrüfatının 150 hektara yaxın torpaq sahəsi var. 2011-ci ildən başlayaraq burada yüksək məhsuldarlığı ilə seçilən "Kolxida" sortundan ibarət çay plantasiyaları salınıb. 2015-ci ildə - ölkədə elan edilən "Kənd Təsərrüfatı İli"ndə ilk dəfə seçmə üsulu ilə yığım aparan "Yaşıl Çay" fermer təsərrüfatının sahələrindən bu il daha bol məhsul gözlənilir. Təsərrüfatın ümumi çay əkini sahəsi 61 hektardır. Gələcəkdə isə çay sahələrinin ümumi sahəsi 100 hektara çatdırılacaq.

Göründüyü kimi Azərbaycanda inkişaf etdirilən sahələrdən biri də çayçılıqdır. Prezident İlham Əliyevin Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair keçirilən respublika müşavirəsində bildirdiyi kimi, çayçılıq intensiv şəkildə inkişaf etdirilməlidir: "Ötən əsrin 80-ci illərindən fərqli olaraq, bu gün bu sahə üzrə kənd təsərrüfatı elmi inkişaf edib. Qeyd etməliyəm ki, dünyanın ən qabaqcıl texnologiyaları Azərbaycanda tətbiq olunmalıdır. Astara rayonuna keçən səfərimdə "Astaraçay" müəssisəsində olmuşam. Bu dəfə də həmin müəssisənin plantasiyalarında olarkən, məruzə edildi ki, onlar məhz bu yanaşmanı tətbiq edirlər, ən müasir texnologiyalar tətbiq olunur. İri çayçılıq və tingçilik təsərrüfatı yaradılmalıdır. Əlbəttə ki, xüsusi texnika gətirilməlidir. İndi bu texnika var, gətirilir. Kənd Təsərrüfatı Nazirliyi növbəti illərdə, xüsusilə çayçılıq, çəltikçilik, sitrusçuluq üçün xüsusi texnikanın alınmasını təmin etsin. Mən giriş sözümdə qeyd etdim ki, 10 min texnika gətirilib. Bu texnika daha çox pambıqçılığın inkişafına xidmət göstərəcək. Biz bunun hesabına pambığın əkin sahələrini təxminən 10 dəfə artırmışıq. Bu sahələr üçün də xüsusi texnika gətirilməlidir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara güzəştli şərtlərlə kreditlər verilməlidir ki, bu işlər daha da sürətlə aparılsın. 2016-cı ildə ölkəmizə 12 min 600 ton çay idxal edilib. Bu məqsədlər üçün ölkəmizdən 45 milyon dollar vəsait gedib. Eyni zamanda, keçən il 1100 ton çay ixrac edilib və ölkəmizə 6 milyon 100 min dollar məbləğində valyuta gəlib. Yəni biz görürük ki, burada tarazlıq bizim xeyrimizə deyil. Biz çayı ixrac edirik. Ancaq daha çox idxal edilən xammal əsasında paketlənmiş, ya da qarışdırılmış çay ixrac edirik. Biz isə Azərbaycanda yetişdirilən çayı emal edib ixrac etməliyik. Belə olan halda, ölkəmizdən bu qədər valyuta getməyəcək.

***"Səs" Analitik Qrupu***

# Görkəmli şərqşünas-alim Aida İmanquliyevanın xatirəsi anılıb



**_Dünən XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anım günü münasibətilə AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi II Fəxri Xiyabanda onun məzarını ziyarət edib, alimin məzarı önünə əklil qoyublar._**

Anım mərasimində Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva 25 il öncə dünyasını dəyişmiş böyük alimin keçdiyi 53 illik həyat yolundan və bu illərdə onun şərqşünaslıq elminə verdiyi böyük töhfələrdən söz açıb. Aida İmanquliyevanın elmi fəaliyyətinin müasir ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə açdığını, yeni bir məktəbin əsasını qoyduğunu söyləyən G.Baxşəliyeva bu görkəmli alimin itkisinin tək şərqşünaslığın deyil, bütövlükdə Azərbaycan elminin böyük itkisi olduğunu qeyd edib. Bildirib ki, bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açıb. Onun elmi fəaliyyəti, nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır.

Sonra Şərqşünaslıq İnstitutunun ərəb filologiyası şöbəsinin aparıcı elmi işçisi Laura Orucova çıxış edərək, A.İmanquliyevanın zəngin elmi fəaliyyətindən danışıb.

***NƏZAKƏT***

# XİN: "Ümumrusiya Azərbaycanlıları Konqresinin ləğvi barədə qərar təəccüb, ciddi sual və dərin təəssüf doğurur"

## *Bu sözləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev AZƏRTAC-a müsahibəsində deyib*

***-Ümumrusiya Azərbaycanlıları Konqresinin ləğvi barədə birinci instansiya məhkəməsinin qərarı Rusiya Ali Məhkəməsinin Apelyasiya Kollegiyası tərəfindən qüvvədə saxlanılıb. Bu barədə nə deyərdiniz?***

-Ümumiyyətlə, Azərbaycan ilə Rusiya arasında humanitar əlaqələrin inkişafında mühüm rol oynayan Ümumrusiya Azərbaycanlıları Konqresinin ləğvi barədə qərarı siyasi baxımdan qeyri-dost addım kimi qiymətləndiririk. Bu, Rusiya və Azərbaycan tərəfindən bəyan olunan və iki ölkə arasında strateji tərəfdaşlıq zəminində inkişaf edən yüksək səviyyəli əlaqələrə ciddi zərbə vurur.



***-Rusiyanın bu addımı nədən qaynaqlanır və arxasında nə durur?***

-Rusiya Federasiyası məhkəməsinin Ümumrusiya Azərbaycanlıları Konqresinin ləğvi barədə qeyri-dost xarakterli qərarının məqsədini başa düşmək çox çətindir. Xüsusilə o halı nəzərə almalıyıq ki, Rusiya ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biridir və bu status tərəflərə münasibətdə tarazlı yanaşmanın nümayiş etdirilməsini tələb edir. Ümumrusiya Azərbaycanlıları Konqresinin ləğvi ilə Rusiyada yaşayan Azərbaycan icması nümayəndələrinə münasibətdə qeyri-ədalətli yanaşma tətbiq olunduğu halda, Rusiya Erməniləri İttifaqına tam dəstək göstərilir və bu qurum fəaliyyətini davam etdirir.

Hər bir halda Rusiya Federasiyasının Ümumrusiya Azərbaycanlıları Konqresini ləğv etmək siyasəti təəccüb, ciddi sual və dərin təəssüf doğurur.

# Rövnəq Abdullayev: "Azəri-Çıraq-Günəşli" yataqları üzrə yeni Saziş bu ildən qüvvəyə minəcək

## *Azərbaycan daha geniş maliyyə və texnoloji imkanlarından yararlanaraq, tam müstəqil fəaliyyət göstərir*

***"Azəri-Çıraq-Günəşli" yataqları üzrə yeni Saziş bu ildən qüvvəyə minəcək. AZƏRTAC xəbər verir ki, bunu SOCAR-ın prezidenti Rövnəq Abdullayev Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişi şərh edərkən bildirib.***



R.Abdullayev xatırladıb ki, beynəlxalq şirkətlərlə "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi haqqında ilk saziş 1994-cü ildə imzalanıb. Həmin müqavilə xüsusi əhəmiyyət daşıdığına görə, "Əsrin müqaviləsi" adlandırılır və 2024-cü ilə qədər 30 il müddətinə nəzərdə tutulurdu. "Bildiyiniz kimi, biz müqavilə müddətinin bitməsindən əvvəl yeni müqavilə barədə danışıqlara başladıq, nəticədə fərqli şərtlər üzrə yeni müqavilə imzalandı. Əvvəlki sazişin müddətinin sona yaxınlaşdığını nəzərə alaraq, bütün tərəfdaşlarda yeni uzunmüddətli investisiyalara maraq yaratmaq və bununla yataqların davamlı istismarını təşkil etmək yeni müqavilə üzrə danışıqlara başlanmasının əsas səbəbi olub. Buna görə sona yaxınlaşan müqavilənin yeni uzunmüddətli müqavilə ilə əvəzlənməsi həm Azərbaycanın, həm də tərəfdaşların maraqlarına uyğundur.

Azərbaycan və SOCAR bu gün 1994-cü illə müqayisədə daha geniş maliyyə və texnoloji imkanlara malikdirlər. Bu da öz növbəsində aparılan danışıqların nəticələrinə təsir göstərir. Azərbaycandakı sabitlik və mülayim investisiya iqlimi investorlarda 2050-ci ilə qədər əməkdaşlığımızı davam etdirməyə maraq yaradıb.

İlk müqavilənin imzalandığı dövrdə, 90-cı illərin əvvəlində Azərbaycan öz tarixinin ən gərgin və qeyri-müəyyən dövrünü yaşayırdı. Müstəqilliyimizin ilk günlərindən ölkəmiz Ermənistanın təcavüzünə məruz qalmışdı. Sovet İttifaqının süqutu gənc iqtisadiyyatımızı böhrana bürümüşdü. Qızğın müharibə şəraiti və iqtisadi böhran azmış kimi, ölkəni sarsıdan daxili siyasi çaxnaşmaların sədası da hələ çox uzaqda deyildi. Bütün bu faktorlar investisiya iqliminə mənfi təsir göstərərək, beynəlxalq investorlar üçün ciddi risklər yaradırdı. Həmin dövrdə maliyyə və texnoloji imkanlarımız məhdud olduğuna görə xarici tərəfdaşların dəstəyinə böyük ehtiyacımız var idi. Azərbaycan Respublikası Prezidentinin qeyd etdiyi kimi, həmin dövrün şəraitinə görə ilk sazişin bağlanması da böyük uğur sayılmalıdır.

Lakin ötən onilliklər ərzində Azərbaycanın iqtisadi potensialının dəfələrlə artması nəticəsində maliyyə və texnoloji imkanlarımız da əvvəlki dövrlə müqayisədə qat-qat artıb. Bu gün SOCAR TANAP kimi nəhəng layihələri artıq operator qismində idarə etməyə, dənizdə müasir özülləri öz imkanları ilə tikib quraşdırmağa və istismar etməyə qadirdir.

Beləliklə, bu gün Azərbaycan daha geniş maliyyə və texnoloji imkanlarından yararlanaraq, tam müstəqil fəaliyyət göstərir. Əlbəttə, SOCAR və Azərbaycanın hazırki mövqeyi və daha geniş olan maliyyə və texniki imkanları aparılan bütün danışıqların nəticələrində öz əksini tapır", - deyə SOCAR prezidenti bildirib.

Rövnəq Abdullayev, həmçinin məlumat verib ki, bu il Sazişin Milli Məclis tərəfindən təsdiqlənməsi və yeni şərtlərin qüvvəyə minməsi gözlənilir. Yeni müqavilədə mənfəət neftindən dövlətin payı stabil olaraq 75 faiz müəyyən edilib. Bu düstur müqavilənin sonunadək dəyişməz qalaraq, dövlət üçün sabit mənfəət nisbətini təmin edir və buna görə daha məqbuldur. Bununla yanaşı, tərəfdaş şirkətlərin yerdə qalan pay hissəsində SOCAR-ın payının 25 faizə qədər artırılması onu göstərir ki, bu gün SOCAR mənfəət nisbətindən yararlanmaqdan əlavə, həm də müvafiq sərmayə yükünü qaldırmağa qadirdir.

# Azərbaycan Dünya Bankı ilə güclü tərəfdaşlıq qurub

***Azərbaycan Dünya Bankı ilə güclü tərəfdaşlıq qurub. Sentyabrın 19-da Azərbaycanın Dünya Bankına üzvlüyünün 25-ci ildönümü ilə bağlı mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Mərkəzi Bankın sədri Elman Rüstəmov 25 illik əməkdaşlıq dövründə Azərbaycanın Dünya Bankından texniki, maddi, ümumiyyətlə hərtərəfli dəstək aldığını deyib.***



Bildirilib ki, Dünya Bankı ilə Azərbaycanın uzunmüddətli və davamlı əməkdaşlığının əsasını ümummilli lider Heydər Əliyev qoyub. 25 il əvvəl Heydər Əliyevin rəhbərliyi ilə liberal bazar iqtisadiyyatının seçilməsi Dünya Bankı tərəfindən dəstəklənib. Struktur islahatlarının dərinləşdirilməsi, sosial-iqtisadi infrastrukturun bərpası və inkişafı, yoxsulluğun azaldılması və digər sahələr Azərbaycanın Dünya Bankı ilə əməkdaşlığının başlıca istiqamətləridir.

2003-cü ildə Prezident İlham Əliyev tərəfindən iqtisadi islahatlar, sıçrayışlı iqtisadi inkişaf strategiyası irəli sürülüb: "Məhz bu dövrdən sonra ölkədə radikal dönüş baş verib, milli iqtisadiyyat 3 dəfədən çox böyüyüb, Azərbaycan orta gəlirli dövlətlər sırasına daxil olub. Yoxsulluq 10 dəfə azalıb, 3 milyondan çox insan yoxsulluqdan xilas olub, 1 milyondan çox yeni iş yeri yaradılıb.

Qeyd edilib ki, bu günədək 50-dən artıq layihəyə Dünya Bankı tərəfindən 3,6 milyard dollar vəsait ayrılıb. Hazırda isə Dünya Bankı tərəfindən dəyəri 1 milyard 140 milyon olan 10 aktiv layihə həyata keçirilir. Ümumilikdə Dünya Bankı Azərbaycanda təhsil və səhiyyə sisteminin yaxşılaşdırılması, nəqliyyat və su kanalizasiya sisteminin təkmilləşdirilməsi, kənd təsərrüfatının, enerji sektorunun inkişafı, ətraf mühitin və mədəni irsin qorunması kimi bir sıra sahələrdə həyata keçirilən layihələrə dəstək verir, neft sektoru üzrə iri layihələr hökumətlə birgə həyata keçirilir. Dünya Bankının Azərbaycan üçün strateji layihələrə, o cümlədən "Cənub Qaz Dəhlizi" layihəsinə verdiyi dəstək xüsusi yer tutur.

Ölkəmizin Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ilə də uğurla əməkdaşlıq etdiyini deyən sədr müxtəlif dövrlərdə IFC-nin çoxsaylı layihələrin maliyyələşdirilməsinə yarım milyard dollar vəsait ayırdığını bildirib.

E.Rüstəmov deyib: "Bu ilin birinci yarısında tədiyə balansının cari əməliyyatlar hesabında ÜDM-in 2,5 faizi səviyyəsində profisit qeydə alınıb. Səkkiz ayda ölkənin strateji valyuta ehtiyatları 12 faizədək artıb və ÜDM-in həcmini üstələyib. Valyuta bazarı tarazlaşıb, milli valyutanın məzənnəsi sabitləşib. İqtisadi subyektlərdə nikbinlik və müsbət gözləntilər yaranıb".

Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Siril Müller qeyd edib ki, təmsil etdiyi qurumun Azərbaycanda ilk layihələri 1995-ci ildə təsdiq edilib. O vaxtdan bəri tərəfdaşlığımız yüksələn xətlə inkişaf edərək həm kəmiyyət, həm də keyfiyyət baxımından təkmilləşib. Azərbaycan bizim sadiq tərəfdaşımızdır. Məhsuldar əməkdaşlığımız gələcəkdə yoxsulluğun səviyyəsinin aşağı salınmasına, müştərək rifahın bərpasına yönəldiləcək. Neft qiymətlərinin aşağı düşməsindən sonra yaranan iqtisadi mühitdə Azərbaycanda bir sıra islahatlar həyata keçirilib. Görülən tədbirlər nəinki çağırışlara cavab verib, o cümlədən gələcək üçün möhkəm və dayanıqlı zəmin yaradır.

Eyni zamanda, Beynəlxalq Maliyyə Korporasiyası 56 layihə çərçivəsində özəl bölmənin müxtəlif sektorlarına, o cümlədən maliyyə xidmətlərinə, infrastruktur və sənayeyə 470 milyon ABŞ dollarından çox sərmayə qoyub.

"Bizim Azərbaycandakı investisiyalarımız illər boyu Avropa və Mərkəzi Asiya regionunda ən iri portfellərimizdən biridir. Azərbaycan Dünya Bankı ilə güclü tərəfdaşlıq qurub. Dünya Bankı Qrupu Azərbaycanın nailiyyətlərində xidməti olduğundan qürur duyur, yaxın gələcəkdə iqtisadiyyatın sağlamlaşdırılması, uzun müddətdə isə dayanıqlı artımı təmin etmək naminə Azərbaycan dövləti və xalqı ilə tərəfdaşlığımızı davam etdirməyə hazırıq", - deyə Siril Müller vurğulayıb.



Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon Dünya Bankı ilə Azərbaycanın əməkdaşlığının 25 illik münasibətilə məhz Azərbaycana gəldiyi üçün çox sevindiyini deyib. Vurğulayıb ki, Azərbaycan bu illər ərzində dost və yaxşı tərəfdaş kimi yadda qalıb.

Sonra Mersi Tembon Baş nazirin müavini Abid Şərifova, maliyyə naziri Samir Şərifova, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənova, iqtisadiyyat naziri Şahin Mustafayevə, Mərkəzi Bankın sədri Elman Rüstəmova, Nazirlər Kabinetinin nümayəndəsi Nail Fətəliyevə təşəkkürnamələr təqdim edib.



Tədbir çərçivəsində Azərbaycanın Dünya Bankına üzvlüyünün 25-ci ildönümü münasibətilə Azərbaycan hökuməti tərəfindən xüsusi olaraq buraxılan markalar imzalanıb və möhürlənib. Markaları Baş nazirin müavini Abid Şərifov və Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon imzalayıb və möhürləyiblər.

Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın əhəmiyyətini vurğulayan Baş nazirin müavini Abid Şərifov Dünya Bankının ölkəmizə ayırdığı kreditdən, həyata keçirdiyi layihələrdən danışıb. Bildirib ki, bu gün Azərbaycan öz iqtisadi inkişafı ilə yanaşı, həm də etibarlı tərəfdaş kimi seçilir. Bunun nəticəsidir ki, artıq 25 ildir Dünya Bankı ilə müxtəlif sahələri əhatə edən layihələr həyata keçirilir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu əməkdaşlıq bu gün də uğurla davam etdirilir. Dünya Bankı tərəfindən ilk layihə su və kanalizasiya sisteminin yaxşılaşdırılması olub. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

"Azərmarka" şirkəti ölkəmizdə Azərbaycan və Dünya Bankı əməkdaşlığın 25 illiyinə həsr olunmuş poçt markası nəşr edib. Bu cür markalardan 25 min nüsxə buraxılacaq. Bu markalar Azərbaycanla Dünya Bankı arasında əməkdaşlığın rəmzinə çevriləcək", - deyə qeyd edən nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə bildirib ki, əhalinin bank və maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması, ölkədə maliyyə xidmətlərinin inkişaf etdirilməsi məqsədilə 2005-ci ildə Dünya Bankı ilə birlikdə "Azərpoçt"da maliyyə xidmətlərinin göstərilməsi potensialının artırılması üzrə geniş layihə uğurla həyata keçirilib. Dünya Bankı Azərbaycanda həyata keçirdiyi bu layihə barədə buklet hazırlayaraq bunu müsbət bir nümunə olaraq bütün ölkələrdə yayır. "Bizim üçün çox müsbət haldır ki, artıq dünyada geniş imkanlardan istifadə edərək, Mərkəzi Bankdan alınmış lisenziyalar əsasında Azərbaycan poçtu ölkənin bütün ərazisində geniş şəbəkə vasitəsilə əhalimizə poçt xidmətlərinin göstərilməsi, pulköçürmələr, maliyyə institutlarının müxbir hesablarının aparılması, debit kredit kartları, poçt çeklərinin emissiyası və s. xidmətləri həyata keçirir. Həyata keçirilən məhz bu layihə "Azərpoçt" MMC-yə maliyyə xidmətlərini göstərmək üçün yeni imkanlar yaradıb", - deyə nazir müavini bildirib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov qeyd edib ki, təmsil etdiyi qurum 18 ildir Dünya Bankı ilə əməkdaşlıq edir. 18 il ərzində Dünya Bankının xətti ilə 170 milyon dollaradək kredit layihələri məcburi köçkünlər üçün icra olunub. Bu kredit layihələri qaçqın və məcburi köçkünlər üçün infrastrukturun qurulması, bu sahədə mövcud potensialın gücləndirilməsi və digər sahələrin inkişafına yönəldilib.

Dünya Bankı qaçqın və məcburi köçkünlərin idarə olunmasında ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin yaratdığı sistem və mexanizmdən bəhrələnir və dünyanın başqa ölkələrində Azərbaycan təcrübəsini tətbiq edir.

Azərbaycanın iqtisadi ticarət partnyorlarının sayının 180 ölkəyə çatdığını deyən iqtisadiyyat naziri Şahin Mustafayev qeyd edib ki, keçən illər ərzində ölkəmizdə ümumi məhsul buraxılışı 22 dəfədən, dövlət büdcəsi 26 dəfədən çox artıb. Azərbaycan xarici investisiyalar üçün cəlbedici məkana çevrilib. Azərbaycan iqtisadiyyatına 200 milyard dollardan çox investisiya yatırılıb, o cümlədən 76 milyard dollar həcmində birbaşa xarici investisiya cəlb olunub. Görülən tədbirlər nəticəsində Azərbaycanın planlı sosialist iqtisadiyyatından liberal bazar iqtisadiyyatına keçidi təmin edilib. Bu uğurlar beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq çərçivəsində mümkün olub. Dünya Bankı bu əməkdaşlıqda ön sıradadır. Dünya Bankı ilə Azərbaycan hökumətinin əməkdaşlığı çoxşaxəlidir. Özəl sektorun, sahibkarlığın inkişafında Dünya Bankının xüsusi rolu var.

"Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda "Bərk məişət tullantılarının vahid idarəçiliyi" layihəsi uğurla icra olunub və Dünya Bankı tərəfindən mükafata layiq görülüb. Bank tərəfindən rəqabətliliyin artırılmasına, ölkəmizdə yaradılan sənaye parklarına və məhəllələrinə texniki dəstək göstərilib", - deyə nazir diqqətə çatdırıb.

Azərbaycanda həyata keçirilən irimiqyaslı layihələr barədə məlumat verən maliyyə naziri Samir Şərifov deyib ki, Azərbaycanın Dünya Bankı ilə o cümlədən maliyyə sisteminin idarə edilməsi sahəsində geniş əməkdaşlığı mövcuddur. Bu sahələr üzrə ən çox maliyyə vəsaiti isə yol tikintisinin yenidənqurulmasına ayrılıb.

Maliyyə naziri vurğulayıb ki, ölkəmiz 1992-ci ildən Dünya Bankı Qrupunun üzvü olsa da, əməli şəkildə əməkdaşlığımız 1995-ci ildən başlayıb. Bankın Bakıda yeni nümayəndəliyi açılıb. Azərbaycan hökuməti Dünya Bankı ilə ilk birgə makroiqtisadi sabitləşdirmə və struktur islahatları proqramının həyata keçirilməsinə başlayıb. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən davam etdirilən iqtisadi siyasətin nəticəsi olaraq ölkəmizin əldə etdiyi nailiyyətlərdə Dünya Bankı ilə əməkdaşlıq vacib rol oynayıb.

"Azərbaycan orta gəlirli ölkələr sırasına daxil olub. Bu gün Azərbaycanda adambaşına gəlir yüksəlib. Azərbaycan Dünya Bankı ailəsinə daxil olan 5 qurumla fəal əməkdaşlıq edir. Hesab edirəm ki, Dünya Bankı ilə əməkdaşlığımız bundan sonra da bugünkü kimi uğurlu olacaq və Azərbaycan inkişafına xidmət göstərəcək", - deyə nazir bildirib.

Tədbirdə Azərbaycan və Dünya Bankı arasında 25 illik tərəfdaşlığın qeyd olunması ilə bağlı videoçarx nümayiş olunub.

Dünya Bankının Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Navid Naqvi təqdimatla çıxış edib. Bildirib ki, təmsil etdiyi qurum Azərbaycanla icra etdiyi 41 layihə artıq yekunlaşıb. Qurum Azərbaycanda su təsərrüfatı sisteminin yaxşılaşdırılması, bərk tullantıların idarə edilməsi və qaçqın və məcburi köçkünlərinin həyat şəraitinin yaxşılaşdırılması layihələrinə dəstək verir.

Sonda iştirakçılar foyedə təşkil olunmuş foto və infoqrafika sərgisi ilə tanış olublar.

# “Əsrin müqaviləsi” müstəqil Azərbaycanın iqtisadi inkişafının əsasını təşkil edir

## *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Kamran Nəbizadənin yap.org.az-a müsahibəsi*

**- Kamran müəllim, məlum olduğu kimi “Əsrin müqaviləsi”nin imzalanmasından 23 il ötür. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş neft strategiyasının tarixi əhəmiyyəti haqqında fikirlərinizi bilmək istərdik. Sizcə, “Əsrin müqaviləsi” Azərbaycana nə verdi?**

- Təbii ki, 20 sentyabr 1994-cü ilə imzalanmış “Əsrin müqaviləsi”ni təhlil edəndə, onun əhəmiyyətini analiz edəndə ilk növbədə tarixi baxımdan bu məsələyə yanaşmalıyıq. Və Azərbaycanın o vaxtlar hansı vəziyyətdə olduğunu xatırlamalıyıq. Bilirsiniz ki, Azərbaycanın müstəqilliyinin elan olunduğu ilk illərdə ölkədə hərc-mərclik hökm sürürdü. Bütün sahələrdə anarxiya idi, iqtisadiyyat çökmüşdü. Bunun da əsas səbəbi, o vaxtkı hakimiyyət səriştəsizliyindən ibarət idi. Digər səbəbi isə o idi ki, Azərbaycan sovetlər birliyinin iqtisadi sisteminə qoşulmuşdu və müstəqillik qazanılandan sonra qurulmuş əlaqələr pozuldu və iqtisadiyyat sürətlə tənəzzülə uğradı. Həm də, o zaman fəaliyyət göstərən müəssisələrin bir çox dağıldı. Bu səbəbdən də, sosial-iqtisadi böhran dərinləşdi. Ermənistanın hərbi təcavüzü isə vəziyyəti daha da gərginləşdirirdi.

1993-cü ilin iyun ayında Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ölkəmizdə anarxiyanın qarşısı alındı, ictimai-siyasi sabitliyin bərpa olunması yönündə ciddi addımlar atıldı. Məhz belə bir şəraitdə “Əsrin müqaviləsi”nin imzalanması üçün xarici şirkətlərlə danışıqlara başlanıldı. Bu danışıqlar uğurla yekunlaşdı və müqavilə imzalandı. Əlbəttə ki, həmin danışıqlar çox çətin şəraitdə gedirdi. Çünki Azərbaycanda sabitlik tam bərpa olunmamışdı, ölkəmiz müharibə şəraitində idi. Ona görə də, bəzi xarici dövlətlərdə bir inamsızlıq var idi. Amma Ulu öndər Heydər Əliyevin şəxsi nüfuzu və Ona olan inam sayəsində 1994-cü ilin sentyabr ayında “Əsrin müqaviləsi” imzalandı. Həmin ilin dekabr ayında isə müqavilə Milli Məclis tərəfindən ratifikasiya olundu.

“Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın dirçəlişinə, iqtisadi inkişafına böyük yol açdı. Bir sözlə, bu müqavilənin imzalanması müstəqil Azərbaycanın inkişafının əsasını təşkil etdi. Prezident İlham Əliyev belə bir fikir söyləyib ki, bizim məqsədimiz neftdən gələn gəlirləri Azərbaycan xalqının gələcək rifahına yönəltməkdən ibarətdir.

Təbii ki, xarici şirkətlərlə neft müqaviləsinin imzalanmasının həm neft sənayesinə, həm də qeyri-neft sənayesinə böyük təsiri oldu. Ümumilikdə, neft sənayesində



həm neft hasilatı üzrə inkişaf getdi, həm neft emalı və s. istiqamətlərdə irəliləyiş oldu. Əsas məqsədlərdən biri də neft sənayesində yeni texnologiyaların tətbiq edilməsi idi. Bu baxımdan da “Əsrin müqaviləsi” böyük əhəmiyyət kəsb edir. Bilirsiniz ki, o zaman texnologiyalara köhnə idi və güclü elmi kadr potensialımız olsa da, texnologiya və sərmayə baxımından bu işləri təkbaşına görməyə hazır deyildik. Çünki bütün bunlara maliyyə imkanlarımız yox idi.

“Əsrin müqaviləsi” imzalandıqdan sonra növbəti mərhələdəki işlər uğurla davam etdirildi. “Əsrin müqaviləsi”nin ardından 1996-cı ildə artıq “Şahdəniz” yatağı üzrə müqavilə imzalandı. 1997-ci ildə “Çıraq” platformasından ilk neft çıxarıldı. 1998-ci ildə Bakı - Novorssiysk neft kəməri bərpa olundu və neftimiz Qara dəniz vasitəsilə ixrac edilməyə başladı. 1999-cu ildə Bakı-Supsa neft kəməri, 2002-ci ildə isə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu və 4 ildən sonra istismara verildi. Bundan sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri də istifadəyə verildi. 2012-ci ildə TANAP üzrə layihə imzalandı və artıq bu il çox güman ki, bu layihə üzrə işlər bitəcək və xətt işə düşəcək. Həmçinin, TAP xətti və bu kəmər vasitəsilə qazın Avropa ölkələrinə çatdırılması üzrə işlər gedir. Şahdəniz-1 və Şahdəniz-2-dən çıxarılan qazın xarici bazarlara çatdırılması nəzərdə tutulur. Bunların hamısı, Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının nəticələri və bəhrələridir.

Bu uğurlu strategiya nəticəsində nəinki neft sənayesini əhatə edən sahələr dirçəldi, həm də bütün iqtisadiyyatımız inkişaf etdi. Bu baxımdan, neft sənayesinin inkişafı qeyri-neft sektorunun inkişafına da ciddi təsir göstərdi. Bunun nəticəsində də, artıq 2009-2010-cu illərdə biz ÜDM-nin artım templəri üzrə MDB məkanında öndə gedən ölkə olduq. Bu illərdən başlayaraq sərmayələrin böyük axını qeyri-neft sektoruna yönəldi.

Bir məqamı xüsusi vurğulayım ki, “Əsrin müqaviləsi”nin imzalanmasının ən böyük nailiyyəti bu oldu ki, biz ictimai-siyasi sabitliyə nail olduq, iqtisadi inkişaf başladı, eyni zamanda iqtisadi təhlükəsizlik yarandı ki, Azərbaycan bunun sayəsində nəinki neft sənayesində, qeyri-neft sektorunda da sərmayəçilər üçün əlverişli və cəlbedici ölkəyə çevrildi. Bu çox mühüm faktdır. Məhz bunun nəticəsidir ki, misal üçün ölkə iqtisadiyyatının müxtəlif sahələrinə daxili və xarici sərmayələrin həcmi 2014-cü ildə 21 milyard dollar təşkil etdi. Əlbəttə ki, bu nailiyyətlərin əsasında “Əsrin müqaviləsi” dayanır. Bütün bunlara, yəni tarixi, siyasi, iqtisadi və beynəlxalq əhəmiyyətinə görə 1994-cü il sentyabrın 20-də imzalanmış neft müqaviləsi “Əsrin müqaviləsi” adlandırılır.

**- Sentyabrın 14-də Bakı şəhərində “Azəri”, “Çıraq” və “Günəşli” yataqları üzrə yeni Saziş imzalandı. Sizcə, bu Saziş Azərbaycan dövləti üçün hansı perspektivlər vəd edir?**

- Bəli, sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirildi. Hesab edirəm ki, bu Saziş “Əsrin müqaviləsi” ilə eyni əhəmiyyətə malikdir. Prezident İlham Əliyev bu Sazişi yeni əsrin müqaviləsi kimi səciyyələndirdi.

Müqavilənin uzadılması onu göstərir ki, xarici ölkələr və şirkətlər Azərbaycanı ciddi, etibarlı tərəf kimi qəbul edir. Bu amil onu sübut edir ki, Azərbaycan düzgün siyasət həyata keçirir və ölkəmizdə ictimai-siyasi sabitlik yüksək səviyyədədir. Birinci müqavilədə neft ehtiyatları 500 milyon ton həcmində proqnozlaşdırılırdı və icra zamanı 436 milyon ton təşkil etdi. Əslində, neft ehtiyatları daha çoxdur. Yeni Sazişə əsasən həmin yataqlarda neft ehtiyatlarının 500 milyon ton həcmində olması proqnozlaşdırılır. Bu da o deməkdir ki, yeni sazişin icrası nəticəsində dövlətimizin gəlirləri daha da artacaq.

Bir məqamı xüsusi vurğulamaq istəyirəm ki, 2016-cı ildən ölkəmizdə qeyri-neft sektorunun inkişafına xüsusi əhəmiyyət və üstünlük verilir. Dövlət başçısı dəfələrlə vurğulayıb ki, bizim gələcək iqtisadi siyasətimizdə qeyri-neft sektorunun inkişafı prioritet təşkil etməlidir, neft faktorunu kənara qoymalıyıq. Təbii ki, qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlər nəticələr verməkdədir. Belə ki, kənd təsərrüfatı, tikinti, turizm və digər sahələrdə ciddi nəticələr əldə olunur. Hazırda sənaye mərkəzləri, məhəllləri yaradılır ki, bunlar da yaxın illərdə daha böyük nailiyyətlərə yol açacaq. Yəni həm neft, həm də qeyri-neft sektorundan ölkəmiz daha böyük həcmdə gəlirlər əldə edəcək. Əsas odur ki, gələcəkdə təbii sərvətlərimiz yalnız ehtiyat faktoru kimi önəm kəsb edəcək.

**- Bu gün Azərbaycan dünyada nüfuzlu dövlət kimi tanınır. Yeni neft sazişinin imzalanması ölkəmizin beynəlxalq müstəvidə mövqeyini nə dərəcədə gücləndirəcək?**

- Azərbaycan regionda ən güclü və həlledici ölkədir. Bizimlə hesablaşırlar, mövqeyimizi qəbul edirlər. Yeni Sazişin imzalanması onu göstərir ki, ölkəmizin nüfuzu daha da artır. İqtisadi və hərbi baxımdan ölkə nə qədər güclü olsa, siyasi baxımdan da o qədər güclü olacaq. Təbii ki, imzalanan saziş də Azərbaycanın daha da güclənməsinə xidmət edir.

**- Neft strategiyasının reallaşmasında, Azərbaycan neftinin dünya bazarına çıxarılmasında ixrac kəmərlərinin rolu hər kəsə məlumdur. Bu baxımdan, kəmərlərin diversifikasiyası nə dərəcədə önəmlidir?**

- Əlbəttə ki, yalnız bir xəttən, kəmərdən asılı olmamaq vacib məsələdir. Loqistika marşrutlarının yaradılması Azərbaycanın neft strategiyasının ən uğurlu məqamlarından biridir. Bütün bunlar zərurətdən doğur. Çünki bu kəmərlər zərurətdən doğan neft və qaz kəmərləridir. Qaz ehtiyatlarımızın böyük olması da zərurət yaratdı ki, TANAP yaradılsın. Proqnozlara görə, “Şahdəniz-2” layihəsi üzrə 16 milyard kubmetr qaz ixrac ediləcək. Onun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə TAP vasitəsilə Avropaya nəql olunacaq.

Eyni zamanda, Orta Asiyada hasil olunan qazın Avropaya nəqli olunmasında da bu kəmərlər vacib rol oynaya bilər. Yəni Azərbaycan taranzit xərclərində də əlavə gəlir qazanacaq. Həm də Azərbaycan tranzit ölkəsi kimi Avropanın, dünyanın enerji təhlükəsizliyi sistemində çox həlledici rol oynayır.

**- Kamran müəllim, bu gün enerji təhlükəsizliyi məsələsi dünyanın qlobal probleminə çevrilib. Belə bir şəraitdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu haqqında nə deyə bilərsiniz?**

- Şübhəsiz ki, bu, çox vacib məsələdir. Bu məsələnin nə qədər aktual olduğu mənim iştirak etdiyim ATƏT PA-nın tədbirlərində də hər dəfə xüsusi olaraq vurğulanır. Bütün üzv ölkələr birmənalı qeyd edir ki, enerji və neft ehtiyatları və onları nəql edən kəmərlər qorunmalıdır. Onların qorunması dünyanın, o cümlədən Avropanın təhlükəsizliyinin və sabitliyinin qorunmasına gətirib çıxarır. Ona görə də, enerji təhlükəsizliyi ön planda olmalıdır. Azərbaycan da Avropanın enerji təhlükəsizliyini təmin edən ən önəmli ölkələrdən biridir.

## İsveçrənin “Romandie” qəzeti AÇG üzrə yeni sazişdən yazır

***İsveçrənin “Romandie” qəzeti Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanmasından yazır. AZƏRTAC xəbər verir ki, qəzetdə yerləşdirilən məqalədə AÇG üzrə yeni sazişin əhəmiyyətindən bəhs edilir. Qeyd edilir ki, yeni müqavilə Azərbaycan üçün daha əlverişli şərtləri birləşdirir.***



Məqalədə bildirilir ki, Böyük Britaniyanın BP şirkəti və Azərbaycan böyük bir yatağın hasilatın pay bölgüsü üzrə düzəliş edilmiş sazişin müddətini 2050-ci ilədək uzadıb. Bakıda keçirilmiş imzalanma mərasimində Prezident İlham Əliyevin çıxışına istinadən qeyd edilir ki, yeni müqavilə özündə Azərbaycan üçün daha əlverişli şərtləri birləşdirir. AÇG-də SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır. Sərmayədarlar tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar həcmində bonus ödəniləcək. Vurğulanır ki, yataqlar blokundan ilk neft hasilatı 1997-ci ildə başlayıb və indiyədək 3 milyard barreldən çox neft hasil olunub. Növbəti 32 ildə bu layihəyə 40 milyard dollar investisiya qoyulması nəzərdə tutulur.

# “Əsrin müqaviləsi”ndən 23 il ötür

## *Bu müqavilə Azərbaycanın müstəqillik tarixində imzalanan ən önəmli və həyati dəyərə malik beynəlxalq müqavilələrdən birincisidir*

***Ulu Öndər Heydər Əliyevin neft strategiyasının ən böyük uğuru sayılan “Əsrin müqaviləsi”nin imzalanmasından 23 il ötür. “Əsrin müqaviləsi” adlandırılan bu saziş müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu. 1994-cü il sentyabrın 20-də imzalanan və “Əsrin müqaviləsi” kimi təşəkkül tapan neft müqaviləsi Azərbaycanın müstəqillik tarixində imzalanan ən önəmli və həyati dəyərə malik beynəlxalq müqavilələrdəndir. Bu müqavilə müasir Azərbaycanın inkişaf perspektivləri baxımından, o cümlədən, iqtisadiyyatın dirçəldilməsi və şaxələndirilməsi prosesində olduqca mühüm rola malikdir. Tarixi müqavilə müasir və qüdrətli Azərbaycanın təməlini möhkəmlətdi. Ölkənin bu gününün və gələcəyinin uğurlu inkişafına yol açdı. “Əsrin müqaviləsi”nin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən düzgün neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.***








Azərbaycanın neft sənayesinin, ümumiyyətlə, iqtisadiyyatının inkişafında yeni dövrün əsasını qoyan “Əsrin müqaviləsi”nin imzalanması ilə başlamış iş XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi. “Əsrin müqaviləsi”nin imzalanması və uğurla həyata keçirilməsi istiqamətində görülmüş işlər nəticəsində, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu xeyli yüksəldi. İlkin neftin hasil olunması Azərbaycanı dünyanın neft ixrac edən ölkəsinə çevirdi.

### AZƏRBAYCAN İNVESTİSİYALARA AÇIQ BİR DÖVLƏTƏ ÇEVRİLDİ

Təbii ki, Azərbaycan neftinin xaricə çıxarılması birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun uzaqgörən siyasəti nəticəsində “Əsrin müqaviləsi” Azərbaycanı investisiyalara açıq bir dövlətə çevirdi və xarici investorlar bu layihə təsdiqini tapdıqdan sonra sərbəst şəkildə ölkəmizə investisiya yatırmağa başladılar. 18 oktyabr 1991-ci ildə ölkəmiz müstəqillik əldə etdikdən sonra bir sıra beynəlxalq müqavilələr imzalanmışdı, amma “Əsrin müqaviləsi”nin imzalanması, məhz Azərbaycan iqtisadiyyatını irəliyə doğru aparan amillərdən biri oldu. Azərbaycan iqtisadiyyatının dirçəldilməsində bu müqavilənin böyük əhəmiyyəti var.

Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. 1994-cü ildən bu günə qədər ölkəmizə milyardlarla dollar həcmində xarici investisiyalar yatırıldı, neft sektorunun inkişafı isə özlüyündə qeyri-neft sektorunun da inkişafını təmin etdi. Digər tərəfdən, bu, iqtisadi inkişafın təməlinin qurulmasına imkan yaratdı. Məhz bu layihədən əldə olunan gəlir sayəsində Azərbaycan vətəndaşlarının sosial təminatının yüksəldilməsi istiqamətində əsaslı addımlar atıldı, müxtəlif layihələr həyata keçirildi. Ölkədə sabitliyin yaranması isə yeni-yeni sahələr üzrə investisiyaların Azərbaycana cəlb olunmasına köməklik göstərdi. Bu da, nəticə etibarı ilə ölkəmizdə regionların sosial-iqtisadi inkişafını və digər mühüm aspektləri özündə ehtiva edən genişmiqyaslı proqramların və konsepsiyaların reallaşmasına şərait yaratdı.

### “ƏSRİN MÜQAVİLƏSİ” YALNIZ AZƏRBAYCAN ÜÇÜN DEYİL, REGİON VƏ AVROPA ÜÇÜN BİR SIRA PROBLEMLƏRİ HƏLL ETMİŞ OLDU

“Əsrin müqaviləsi”nə qədər Azərbaycan kifayət qədər yol gedib. Azərbaycan dövlətinin təbii sərvətlərinə sahib çıxmaq üçün atdığı addımlar əsrin müqaviləsində öz əksini tapıb. Dünyada təbii sərvətlərlə zəngin olan və onu dünya bazarına çıxaran dövlətlər çoxdur. Ancaq onlardan heç də hamısı uğur qazanmayıb. Uzaqgörən siyasətçi Ulu Öndər Heydər Əliyev “Əsrin müqaviləsi”ni imzalamaqla yalnız Azərbaycan üçün deyil, region və Avropa üçün bir sıra problemləri həll etmiş oldu. Bu müqavilənin izalanması güclü Azərbaycanın əsasını qoydu. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdı-

# “Əsrin müqaviləsi”ndən 23 il ötür

## *Bu müqavilə Azərbaycanın müstəqillik tarixində imzalanan ən önəmli və həyati dəyərə malik beynəlxalq müqavilələrdən birincisidir*









rılan enerji siyasəti dünyanın ilk neft hasilatçılarından olan Azərbaycanı beynəlxalq enerji bazarlarında birbaşa iştirakçıya çevirdi. Nəticədə, enerji resursları ölkəmiz üçün yalnız dövlət gəlirlərinin artması mənbəyi deyil, həmçinin, ciddi geosiyasi alətə çevrildi. Azərbaycan artıq dünya enerji təhlükəsizliyinə töhfə vermiş ölkələrdən sayılır. Qlobal arenada enerji təzhizatçısı kimi Azərbaycanın müstəqil beynəlxalq siyasət həyata keçirmə imkanları möhkəmləndi.

Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində, neft və qazın bir neçə kəmər vasitəsi ilə Azərbaycandan Avropaya çıxarılması təmin edilib. Azərbaycan üçün nə vaxtsa hər hansı bir kəmərdə təhlükə yaransa, hansısa bir hadisə baş verərsə, digər kəmər vasitəsi ilə təbii sərvətini xarici dövlətə çıxara biləcək. “Bakı-Tbilisi-Ceyhan” Əsas İxrac Boru Kəməri dünyada bənzəri olmayan mühəndis qurğusudur. Bu layihə Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edir.

Ötən 23 il ərzində ölkənin sosial-iqtisadi göstəriciləri kifayət qədər dəyişib. Bu inkişafın təməli isə “Əsrin müqaviləsi” imzalandığı gün qoyulmuşdu. Onu da bildirək ki, 2001-ci ildə Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə sentyabrın 20-si “Neftçilər Günü” kimi elan olunub. Hər il neftçilər öz peşə bayramlarını qeyd edirlər. Həmin gün hər il əməkdə fərqlənən neftçilər Azərbaycan Prezidentinin Sərəncamı ilə fəxri adlarla təltif olunurlar. Neft sənayesində uzun müddət səmərəli əmək fəaliyyətinə görə onlarla neftçi Prezidentin Fərdi Təqaüdünə layiq görülüb. Bu gün neftçilər üçün ikiqat bayrama çevrilib. Bu günü neftçilər həm “Əsrin müqaviləsi”ni, həm də peşə bayramı günü kimi qeyd edirlər.

### AZƏRBAYCAN ÖZ NEFT KAPİTALINI İNSAN KAPİTALINA ÇEVİRİR

Artıq bu gün Azərbaycan regionun lider dövlətidir və iqtisadiyyatının inkişafında neft amilinin böyük rolu var. Neftdən əldə olunan gəlir qeyri-neft sektorunun inkişafına yönəldilir ki, bu da ölkə iqtisadiyyatının bütünlüklə çiçəklənməsi deməkdir.

Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasəti nəticəsində, bu gün neft Azərbaycan xalqının rifahına xidmət edərək, ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilib. Bu müqavilə makroiqtisadi və sosial göstəricilərə öz təsirini göstərib. Tarixi reallıqlara, statistik göstəricilərə əsaslanaraq, deyə bilərik ki, neft gəlirləri nəticəsində baş vermiş iqtisadi sıçrayış əhalinin gəlirlərinin artımasına, yoxsulluğun azaldılmasına və başqa sahələrdə irəliləyişə səbəb oldu. Ölkədə aztəminatlı ailələrin sosial təminatı gücləndirilib, təhsil və səhiyyə sektorlarında, xüsusilə də, infrastrukturun yenilənməsi, xidmət səviyyəsinin artırılması və bu sahələrdə çalışanların əmək haqlarının artırılmasına diqqət yetirilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan öz neft kapitalını insan kapitalına çevirir.

### “AZƏRİ-ÇIRAQ-GÜNƏŞLİ” NƏHƏNG NEFT YATAĞININ İŞLƏNİLMƏSİNDƏ YENİ DÖVR BAŞLANIR

Bu günlərdə isə Bakıda - Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Saziş imzalandı. Bu, “Azəri-Çıraq-Günəşli” nəhəng neft yatağının işlənilməsində yeni dövrün başlanması kimi qiymətləndirilib. “Azəri-Çıraq-Günəşli” neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Müqavilənin uzadılması gələcək üçün uzunmüddətli çiçəklənməni və sabitliyi təmin edəcək. Yeni imzalanan müqavilə Azərbaycan üçün daha da əlverişlidir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev qeyd edib ki, 1994-cü ildə imzalanmış kontraktın bizim maraqlarımızı tam təmin etməsinə baxmayaraq, bu dəfə isə daha da yaxşı şərtlərlə kontrakt imzalanır: “Bunun bir neçə əsas parametrlərini diqqətinizə çatdırmaq istəyirəm: kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək; SOCAR-ın “AzAÇG” şirkəti podratçı kimi kontraktın icrasında iştirak edəcək; SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Bunlar əsas şərtlərdir”. Bu şərtlərin isə Azərbaycanın gələcək inkişafında əhəmiyyəti böyükdür.

Cənab Prezident 23 il ərzində “Əsrin müqaviləsi”nin uğurlu olduğuna da nəzər salıb. Bu illər ərzində “Azəri-Çıraq-Günəşli”dən 436 milyon ton neft hasil edildiyini qeyd edib: “Yaxşı xatırlayıram ki, 1994-cü ildə kontrakt imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Ancaq bugünkü məlumat, - əminəm ki, bu, son məlumat deyil, ehtiyatlar daha da artacaq, - onu göstərir ki, hələ də “Azəri-Çıraq-Günəşli”də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı vardır”.

Həqiqətən də, ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir. İyirmi üç il ərzində Azərbaycan böyük yol keçmişdir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır: “Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığının azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur. Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, ölkəmizin böyük potensialı var. Son illər ərzində biz bu potensialı gücləndirmişik və bu potensialın inkişafında “Əsrin kontraktı”nın xüsusi rolu vardır”.

**_Nəzakət ƏLƏDDİNQIZI_**

# Azərbaycan dayanıqlı iqtisadiyyata malikdir

***Danılmaz bir faktdır ki, son illər Azərbaycan həm bölgədə, həm də dünyada böyük nüfuz qazanmış sürətlə inkişaf edən ölkələr sırasına daxil edilmişdir. Məlumdur ki, müstəqil respublikamızın inkişaf strategiyası Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılmış və bu gün bu strateji kursu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev ölkəmizin sürətli tərəqqisini təmin etmişdir.***

Ölkə rəhbərinin Azərbaycan dövlətinin hərtərəfli inkişafına, xalqın rifahının yüksəldilməsinə yönəlmiş sosial-iqtisadi siyasəti öz müsbət nəticələrini göstərir. Azərbaycanın bütün sahələrdə qazandığı nailiyyətlərin fonunda isə iqtisadi qüdrətimiz artır. Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev çıxışlarının birində qeyd edib ki, dünyada hələ də iqtisadi və maliyyə böhranı davam edir. Bütün bunlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir və bu inkişafın təməlində islahatlarımız dayanır.

Müstəqil Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsas məzmunu və mahiyyəti ondan ibarətdir ki, xalqımızın, dövlətimizin maraq və mənafeyi, rifahı və gələcək inkişafı istiqamətində addımlar atılır və bu yöndə bütün imkanlar səfərbər edilir. Bütün bunlar ölkəmizin qazandığı nailiyyətlər sırasına daxildir. Əldə olunan nailiyyətləri bugünkü firavan gözəl həyatımız, qısa müddətdə, sosial-iqtisadi inkişafımız, ictimai-siyasi sabitlik, mövcud vətəndaş həmrəyliyi və beynəlxalq aləmdə artan nüfuzumuz sübut edir.

Ulu Öndər Heydər Əliyev kursunu yeni müasir tələblər səviyyəsində uğurla davam etdirən dövlət başçımız ölkəyə rəhbərliyi dövründə bir çox ciddi nailiyyətlərə imza atmışdır. Bu uğurlar həm ölkəmizin ümumi həyatında, həm də insanların şəxsi həyatında hiss olunur.

Qeyd edək ki, hər bir ölkənin inkişafının göstəricisi, təbii ki, ilk olaraq statistik rəqəmlərdə ifadə olunur. Ümumi daxili məhsulun artımı, sənaye və kənd təsərrüfatı istehsalının yüksəlməsi, yeni iş yerlərinin açılması, bazar iqtisadiyyatına keçid, bütövlükdə əhalinin real gəlirlərinin artması, rifahının yaxşılaşması və sair bu kimi faktorlar dövlətimizin inkişafının göstəricisidir. Dövlət başçısı Cənab İlham Əliyev dəfələrlə bəyan edib ki, həyata keçirilən siyasətin, görülən bütün işlərin başlıca məqsədi ölkə əhalisinin rifahının yaxşılaşmasıdır. Statistik göstəricilərə görə, Azərbaycan dünyanın inkişaf etmiş bir çox ölkəsini geridə qoyub. Bu isə, onu deməyə əsas verir ki, makroiqtisadi sabitliyin təmin edilməsi istiqamətində görülən tədbirlər çox yaxşı nəticə verib.

**AZƏRBAYCAN SİYASİ VƏ İQTİSADİ MƏSƏLƏLƏRİN HƏLLİNDƏ ƏVƏZOLUNMAZ İŞTİRAKÇIDIR**



Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi inkişaf kursunun nəticəsi olaraq Azərbaycan iqtisadi sahədə keçid dövrünü artıq arxada qoymuşdur. Ümummilli Liderin əsasını qoyduğu siyasi kursun, ötən illər ərzində Prezident İlham Əliyev tərəfindən böyük əzmlə və məharətlə həyata keçirilməsi nəticəsində, bu gün müstəqil Azərbaycan demokratik və bəşəri dəyərlərin bərqərar olduğu məkan və dünya birliyinin layiqli üzvü, davamlı inkişaf edən, dayanıqlı iqtisadiyyata malik ölkədir. Siyasi və iqtisadi qüdrəti daim artan Azərbaycan bu gün regionun bütün siyasi və iqtisadi məsələlərinin həllində əvəzolunmaz iştirakçı, əsas söz sahibidir. Azərbaycanın iştirakı olmadan regionda heç bir enerji və digər mühüm iqtisadi layihələr həyata keçirilə bilməz. Dövlət başçısının sosial-iqtisadi inkişaf strategiyasının ən səciyyəvi cəhətlərindən biri də bu konsepsiyanın elmi əsaslara söykənməsi, hər bir sahənin inkişafı üçün konkret hədəf və məqsədlərin, onlara nail olunmaq yollarının dəqiq müəyyən edilməsidir. Dünyada siyasi, iqtisadi və sosial kataklizmlərlə müşayiət olunan böhran proseslərinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı davamlı inkişaf edir, qarşıya qoyulmuş məqsədlərə nail olunur və nəzərdə tutulmuş bütün nəticəsini verir.

**AZƏRBAYCAN RESPUBLİKASINDA TƏTBİQ OLUNAN TURİZM SİYASƏTİ İQTİSADİ İNKİŞAFA YÖNLƏNDİRİLİR**

Müasir dövrdə turizm fəal istirahətin geniş yayılmış və ən kütləvi növü olmaqla bərabər, dünya iqtisadiyyatının inkişafına təsir göstərən ən böyük sənaye sahələrindən biridir. Məlum olduğu kimi, turizm siyasəti dövlət tərəfindən həyata keçirilən tədbirlər məcmusu olmaqla, bu sahənin ölkənin iqtisadi və sosial sferalarında rolunu və vəzifələrini idarə etməkdir.

Respublikamızda dünya praktikasından məlum olan ölkəyə yüksək gəlir gətirən qeyri-neft sektoru olan turizmin inkişafı istiqamətində tədbirlər həyata keçirilir. Məlumdur ki, ölkənin turizm potensialının inkişafı təsərrüfatın bütün sahələrinə təsir göstərir və onların inkişafını stimullaşdırır. Azərbaycan Respublikasında tətbiq olunan turizm siyasəti iqtisadi inkişafa yönləndirilir.

Qeyd edək ki, ölkəmizdə də son illərdə turizm sektorunun davamlı və dayanıqlı inkişafı məsələsinin aktuallığı daha da artmışdır.

Bildiyimiz kimi, Azərbaycanın sədrliyi ilə Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının Turizm Etikası üzrə Konvensiyanın hazırlanması məqsədilə yaradılmış İşçi Qrupunun növbəti iclası keçirilir. Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının (BMÜTT) Turizm Etikası üzrə Konvensiyanın hazırlanması məqsədilə yaradılmış İşçi Qrupunun dördüncü - sonuncu iclası Çin Xalq Respublikasının Çendu şəhərində olub. Tədbirdə BMÜTT-nin baş katibi Taleb Rifai, Turizm Etikası üzrə Dünya Komitəsinin sədri Paskal Lami, sözügedən işçi qrupuna, eləcə də, BMÜTT-yə üzv ölkələrin 50-yə yaxın nümayəndəsi iştirak edib. İki gün davam edən iclas çərçivəsində "Turizmin qlobal etik kodeksi"ni konvensiyaya çevirmək istiqamətində müvafiq mövzular ətrafında son müzakirələr davam etdirilib. Daha sonra, Konvensiyanın İşçi Qrupu tərəfindən razılaşdırılmış yekun variantının BMÜTT-nin Baş Assambleyasının 22-ci sessiyasına təsdiq üçün təqdim edilib.

Xatırladırıq ki, BMÜTT-nin 36 üzv ölkəsinin nümayəndəsinin təmsil olunduğu İşçi Qrupunun əsas vəzifəsi Turizm Etikası üzrə Dünya Komitəsi ilə birgə işləyərək BMÜTT-nin Turizm üzrə Qlobal Kodeksi əsasında hüquqi cəhətdən bütün üzv dövlətlərə məcburi qaydada şamil oluna biləcək "Turizm Etikası üzrə Konvensiya"nın hazırlanmasından ibarət idi.

Sözügedən Konvensiya turistlərin hüquqlarının qorunması, onların təhlükəsizliyi naminə aparılmalı olan islahatlar, turizm sənayesi mütəxəssislərinin üzərinə düşən öhdəliklər, eləcə də, turizmin davamlı inkişafda və beynəlxalq sülhdə oynadığı rol və turizm sektoru üzrə bir sıra digər mühüm müddəaları özündə əks etdirəcəkdir. Bu, BMÜTT-nin ilk Konvensiya sənədi olacaqdır.

**ZÜMRÜD**

## BMT-nin 72-ci sessiyası mühüm qərarların qəbulu ilə yadda qalacaq

*Azər Badamov: "Prezident İlham Əliyevin ABŞ-a səfəri Azərbaycan-ABŞ münasibətlərinin inkişafına öz töhfəsini verəcək"*



Müsahibimiz millət vəkili Azər Badamovdur

***- Azər müəllim, BMT Baş Assambleyasının 72-ci sessiyası öz işinə başlayıb. Bu sessiyanın dünyada sülhün, təhlükəsizliyin qorunmasında və dövlətlərarası əməkdaşlıq münasibətlərinin qurulmasında rolunu və əhəmiyyətini necə qiymətləndirmək olar?***

- BMT Baş Assambleyasının sessiyalarında dünyada baş verən qlobal problemlər müzakirə olunur, qətnamə və qərarlar qəbul edilir. İndiki dünyada çoxlu sayda müharibə ocaqları, işğalçılıq prosesləri, dini-irqi-milli ayrı-seçkilik və təqiblər, soyqırımlar, aclıqdan əziyyət çəkənlər baş alıb gedir. Düşünürəm ki, BMT -nin 72-ci sessiyasında da belə problemlər müzakirə olunacaq, hadisələrə qiymət veriləcək və ümumi qərarlar qəbul olunacaqdır. Qeyd etdiyim aspektlər baxımından dünyada sülhün, təhlükəsizliyin qorunmasında və dövlətlərarası əməkdaşlıq münasibətlərinin yaxınlaşmasında bu sessiyanın böyük rolu olacaqdır.

***- Sessiyanın işində iştirak etmək üçün Azərbaycan Prezidenti İlham Əliyev və Azərbaycan Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da ABŞ-da səfərdə olublar. Bu səfərin əhəmiyyəti ilə bağlı nə demək olar?***

- Dövlət başçımızın və Birinci vitse-prezidentin ABŞ-a səfəri ölkəmiz üçün böyük əhəmiyyətə malikdir. Dünyada 200-ə yaxın dövlət mövcuddur və bir çoxu BMT-nin üzvüdürlər. Baş Assambleyanın sessiyasında əksər dövlətlərin rəhbərləri və rəsmiləri iştirak edəcək. Bu, dövlətlərarası münasibətlərin qurulması, yeni dostluq münasibətlərin yaradılması və torpaqlarımızın uzun müddət işğal altında qalmasını müzakirə etmək üçün əvəzolunmaz platformadır. Prezident İlham Əliyevin ABŞ-a səfəri Azərbaycan - ABŞ münasibətlərinin inkişafına öz töhfəsini verəcək. Dövlət başçımız artıq bəzi siyasi və dinlərin nümayəndələri ilə görüşlər keçirmişdir. Səfər çərçivəsində çoxlu görüşlər olacaqdır. Bu da ölkəmizi dəstəkləyənlərin çoxalmasına gətirib çıxaracaqdır. Qloballaşan dünyada tək yaşamaq mümkün deyil. Ona görə də, dostların sayı çoxaldıqca, dünyada nüfuzumuz da artır.

***- Dağlıq Qarabağ münaqişəsinin həllində bu qurumun ciddi səylər göstəməməsini nə ilə əlaqələndirmək olar?***

- Azərbaycan 1992-ci ildən BMT-nin üzvüdür. Bu qurum Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ərazilərimizin qeyd-şərtsiz azad olunması barəsində 4 qətnamə qəbul etmişdir. Amma təəssüflər olsun ki, qətnamələrin qəbulundan uzun illər keçməsinə baxmayaraq, bu istiqamətdə heç bir dəyişiklik olmamışdır. Elə olur ki, bəzi ölkələr barəsində qətnamə qəbul olunan kimi, dərhal icrası üçün hərəkətə keçirlər. Lakin Azərbaycanın işğal altında olan əraziləri ilə bağlı qəbul olunmuş qərarın həyata keçirilməsində heç bir hərəkət yoxdur. Burda bir sual yaranır: necə olur ki, Dağlıq Qarabağla bağlı qəbul olunmuş qərarda bir dəyişiklik olmur? Burdan bir nəticə çıxarmaq olar ki, BMT öz fəaliyyətini xüsusi sifarişlərə əsasən qurmuşdur. Əgər Cənubi Qafqazda, Azərbaycan ərazisində sülh və əmin-amanlıq bərpa olunmayaraq, qətnamələr də kağız üzərində qalacaqdır. Görünür, onlara Azərbaycandakı sabitlik lazım deyil. Çünki sabit və bütöv Azərbaycan daha, güclənə və inkişaf edə bilər. Onların özləri kimi inkişaf edən ölkələri görməyə gözləri yoxdur. Onlar istəyirlər ki, bizim kimi ölkələr daima özlərindən asılı vəziyyətdə qalsın. Ona görə də, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi həll olunmur və uzun müddətdir ki, regionda gərginlik qızışmaqdadır.

***- Sessiyanın işində həm də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü nəzərdə tutulur. Bu görüşlə bağlı nə isə ümidverici şərhlər vermək mümkündürmü?***

- Təbii ki, biz hər dəfə görüşə gedəndə, ümidlərlə gedirik və bu görüşdən də müəyyən irəliləyiş gözləyirik. Görüş zamanı əldə olunan razılaşmalar, konkret nəticə əldə olunana qədər ictimaiyyətə açıqlanmır. Amma görüşdə hansısa razılaşma əldə olunarsa, bu özü bir irəliləyişdir, hansısa bir ümidin reallaşmasıdır. Dünya gücləri də həmişə bildirirlər ki, münaqişə danışıqlar yolu ilə həll olunmalıdır. Belə götürəndə, dünya tarixində baş vermiş bütün müharibələrdə tərəflər böyük itkilərdən sonra yenə danışıqlar masası arxasına keçərək, sülh müqaviləsini imzalayırlar. Düşünürəm ki, bu gün olmasa da, zaman gələcək, ermənilər də bunu anlayacaq və ən azından, öz xalqını düşünərək torpaqlarımızı işğaldan azad etmək barəsində sülh müqaviləsinə imza atacaqlar.

**GÜLYANƏ**

# 25 ildə qazanılan uğurların təməlində sözlə əməl birliyi dayanır

*YAP Sabunçu rayon təşkilatının ərazi ilk partiya təşkilatında partiyanın yaranmasının 25 və "Əsrin müqaviləsi"nin 23 illiyi ilə bağlı tədbir keçirilib*

YAP Sabunçu rayon təşkilatı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci ərazi ilk partiya təşkilatında partiyanın yaranmasının 25 və "Əsrin müqaviləsi"nin 23 illiyi ilə bağlı tədbir keçirilib. Tədbirdə YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva çıxış edərkən qeyd edib ki, keçirilən tədbir əlamətdar tarixi günlərdə - Yeni Azərbaycan Partiyasının yaranmasının 25, "Əsrin müqaviləsi"nin 23 illiyi ərəfəsində keçirilir: "Cənubi Qafqazın aparıcı siyasi təşkilatı kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyasının yaradılmasından 25 il ötür. Təbii ki, hansısa bir hadisənin baş verməsi üçün bir zərurət və əsas olmalıdır. Yeni Azərbaycan Partiyasının yaradıldığı dövrə qısasca nəzər salsaq, bu zərurət özünü qabarıq şəkildə büruzə verər. 1992-ci ildə zamanın tələbi, xalqın istəyi ilə yaranan Yeni Azərbaycan Partiyasının ötən 25 ildə keçdiyi yol, əldə etdiyi uğurlar biri-birindən əhəmiyyətli olmaqla yanaşı, gələcək barədə də aydın təsəvvür yaradır. Çünki partiyanın 25 ildə qazandığı uğurların təməlində sözlə əməl birliyi dayanır. Dövlətə və xalqa xidməti fəaliyyətinin əsas prinsipi kimi qəbul edən YAP-ın cəmiyyətdə nüfuzunun artmasında, sıralarının genişlənməsində bu amilin rolu inkaredilməzdir".






M.Abasquliyeva, həmçinin 20 sentyabr 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan və 12 xarici neft şirkətindən ibarət konsorsium arasında "Əsrin müqaviləsi"nin imzalanması ilə bütün dünyanın diqqət mərkəzinə çevrildiyini bildirdi: "Əsrin müqaviləsi" Azərbaycanın neft-qaz sənayesini dirçəltdi, ölkənin enerji təhlükəsizliyini təmin etdi, iqtisadiyyatın bütün qalan sahələrinin inkişafına təkan oldu, xalqın və respublikanın rifahının yüksəlməsinə gətirib çıxardı. Bu günlər "Azəri"-"Çıraq" - "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi haqda imzalanan yeni anlaşma, birmənalı olaraq, müsbət qiymətləndirilir və Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu neft strategiyasının uğurla davam etdirildiyini bir daha təsdiqləmiş oldu ".

Tədbirdə YAP Sabunçu rayon təşkilatı sədrinin müavini Bəxtiyar Qasımov, kollecin müəllimlərindən Sevinc Nəsirova, Tural Abbaslı, 3-cü kurs tələbəsi Günay Allahverdiyeva, 4-cü kurs tələbələrindən Fatima Abdullayeva, Azər Quliyev və başqaları çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və bugünkü Azərbaycanın inkişafında mühüm rol oynayan, dövlət orqanları üçün kadr bazasına çevrilmiş Yeni Azərbaycan Partiyasının cəmiyyətin və dövlətin davamlı inkişafındakı rolundan danışdılar.

Sonra təşkilati məsələlərə baxılıb, partiyanın üzvü Aygün Məhərrəmova ərazi ilk partiya təşkilatının sədri seçilib. YAP Sabunçu rayon partiya təşkilatının sədri M.Abasquliyeva ərazi ilk partiya təşkilatının yeni seçilmiş sədrinə uğurlar arzulayıb və rayonda həyata keçirilən partiya işində fəal olacağına inamını ifadə edib.

**R. HÜSEYNOVA**

# "Yeni əsrin yeni müqaviləsi"

*YAP Xaçmaz rayon təşkilatı Heydər Əliyev Mərkəzi ilə birgə "Yeni əsrin yeni müqaviləsi" ilə əlaqədar tədbir keçirib*



Dünən YAP Xaçmaz rayon təşkilatı Heydər Əliyev Mərkəzi ilə birgə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi ilə əlaqədar Heydər Əliyev Mərkəzində tədbir keçirmişdir. Tədbiri giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatı idarə heyətinin üzvü, Heydər Əliyev Mərkəzinin direktoru Könül Əskərova açaraq, "Yeni əsrin yeni müqaviləsi"nin dövlətimizin dünyada yerinin və rolunun möhkəmlənməsində, xalqımızın sosial rifah halının daha da yaxşılaşmasında oynayacağı rolundan danışmışdır. Bildirmişdir ki, "Yeni əsrin yeni müqaviləsi"nin bağlanması Azərbaycanın bir dövlət kimi tanınmasına, onun dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə mühüm təkan olacaq.



Tədbirdə çıxış edən YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev "Yeni əsrin yeni müqaviləsi"nin əhəmiyyətindən, ölkəmizin inkişafındakı rolundan və gələcək perspektivlərindən danışaraq, 1994-cü illə 2017-ci il də imzalanan müqavilələrin bir-birini tamamlanmasını qeyd etmişdir. "Yeni əsrin yeni müqaviləsi" bir daha sübut etdi ki, Möhtərəm Prezidentimiz Ulu Öndərin siyasətini uğurla davam etdirərək, daha da inkişaf etdirir. "Yeni əsrin yeni müqaviləsi"nin həyata keçirilməsinin əsasını Azərbaycanda aparılan demokratik quruculuq prosesləri, ölkəmizin bütün dünyaya açıq olması prinsipi və Azərbaycanda ictimai-siyasi sabitliyin möhkəm əsaslar üzərində qurulması təşkil edir: "Yeni əsrin yeni müqaviləsi"nin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən düzgün neft strategiyasının uğurla həyata keçirilməsinin parlaq təzahürüdür. Bu gün Azərbaycan tranzit ölkə kimi çox böyük rola malikdir. Ölkə ərazisindən nəql edilən neft və neft məhsullarının həcmi ildən-ilə artmaqdadır. Uğurla həyata keçirilən neft strayegiyası xalqımıza firavan və təhlükəsiz yaşayış bəxş edir. Buna görə, Ulu Öndər Heydər Əliyev yoluna və bu yolu uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevə minnətdarlıq edirik".

Tədbirdə YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov və digərləri də çıxış edərək, "Yeni əsrin yeni müqaviləsi"nin imzalanmasının əhəmiyyətini qeyd etmişlər.

**Rəfiqə**

# Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır

*Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının gənclər birliyinin II Konfransı keçirildi*

Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı qərargahının akt zalında Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının gənclər birliyinin II Konfransı keçirilmişdir. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında başlamış, Ulu Öndər Heydər Əliyevin gənclərə ayırdığı xüsusi diqqəti özündə əks etdirən video-çarx nümayiş etdirilmişdir. Video - çarxda Yeni Azərbaycan Partiyasının banisi, siyasi fəaliyyəti ilə daima gənclərə örnək olan Heydər Əliyevin çıxışlarına və gənclərə müraciətinə xüsusi yer verilmişdir.






Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu YAP-ın keçdiyi şərəfli, qürurverici tarixi yolundan danışmışdır. Bildirmişdir ki, YAP xalqın partiyası olaraq ölkəmizin ictimai-siyasi həyatında, geniş quruculuq-abadlıq işlərinin aparılmasında yaxından iştirak edir. Bu gün birmənalı mövqe ondan ibarətdir ki, YAP, nəinki Azərbaycanda, ümumiyyətlə Cənubi Qafqazda ən aparıcı, lider siyasi təşkilatdır. Bu uğurlara xalqa, dövlətə xeyirli, gərəkli fəaliyyəti və Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətə sədaqətli olması ilə nail olub. YAP bundan sonra da inkişaf edəcək, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni uğurlara imza atacaq".

Pirallahı rayonunda keçirilən hər bir tədbirdə YAP Pirallahı rayon təşkilatının səmərəli fəaliyyətindən geniş məlumat verən Hikmət Şikarov onu da vurğuladı ki, bundan sonrakı fəaliyyətimizdə də daima partiyanın siyasi kursunu rəhbər tutaraq, Azərbaycan Respublikasının rifahı və inkişafı naminə xidmət göstərəcəyik. Tədbirdə millət vəkili Fuad Muradov və YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov çıxış edərək bildirdilər ki, bu gün ölkəmizin əldə etdiyi ugurlarda əhəmiyyətli rolu olan Yeni Azərbaycan Partiyası, nəinki Azərbaycanda, eyni zamanda, bölgədə böyük siyasi qüvvəyə çevrilib. Vurğulandı ki, son illərdə YAP-ın sıralarına daxil olanlar arasında gənclər üstünlük təşkil edir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının gənclər birliyinin gördüyü işlər barədə hesabat dinlənilmişdir. Çıxışlarından sonra partiyanın fəal üzvlərinə Fəxri Fərmanlar, yeni YAP üzvlərinə partiya üzvlük vəsiqələri təqdim olunmuşdur. Səsvermə yolu ilə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının gənclər birliyinin 21 nəfərdən ibarət şura üzvləri, 11 nəfərdən ibarət idarə heyəti, yeni sədr və sədr müavinləri seçilmişdir. Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının gənclər birliyinin sədri Həşimli Mehman Vahid oğlu seçilmişdir. Sonda konfransın qərar layihəsi səsvermə yolu ilə təsdiq olunmuşdur.

**Rövşən Rəsulov**

# Ermənistan iqtisadiyyatı üçün müharibə kabusu

*Və yaxud daşınan su ilə dəyirman işləməz*

***Bu gün Ermənistan sovetdən qalma rüşeym iqtisadiyyatı qürub dövrünü yaşayır. İşğalçı ölkənin iqtisadçıları və əcnəbi təhlilçilər də bu iddianı təsdiqləyirlər. Ermənistanın Milli Statistika Xidmətinin nümayəndəsi Diana Martirosova bəyan etdiyi "Ermənistanın sosial siması və kasıblıq" adlı tədqiqatında son illər ölkə əhalisinin 2/3 hissəsinin kasıblıq həddində yaşadığını bildirib. Kasıblıq 27,6 faiz olsa da, 2016-cı ildə 33 faizə qədər yüksəlib. Kasıblıq həddində olan təbəqədə 1,8 faiz, çox kasıb həddində olanlarda isə 1,7 faiz artım müşahidə edilib. Ümumdünya rəqabət qabiliyyətinin analiz edildiyi "The Global Competitiveness Report 2014-2015" nəticələrinə görə Ermənistan 6 pillə geri gedərək, 144 dövlət arasında 95-ci olub.***

Sadalananların fonunda Ermənistanın baş naziri Karen Karapetyanın ötən həftəsonu bu xüsusda etdiyi acı etiraflar, əslində, təəccüblü deyil. Onun sözlərinə görə, Ermənistan iqtisadiyyatında vəziyyət yaxşılaşmır: "Ermənistan Milli Statistika Xidməti rəqəmlər açıqlayıb. İqtisadi göstəricilər oktyabrla müqayisədə noyabrda 5% azalıb. İqtisadi aktivlik iyul ayından etibarən aşağı düşməkdədir, hərgah, ilin əvvəlində yüksək inkişaf tempindin danışırdılar. İlin birinci rübündə iqtisadi fəallıq 8,7% olub, ancaq elə birinci yarım ildəcə 4,4%-ə düşüb. İl, faktiki olaraq, sıfır artımla başa çatır".

## İşğalçı ölkənin xarici borcu 7 milyarda yaxındır

Ermənistanın maliyyə naziri Vardan Aramyan ölkənin xarici borcunun 6 milyard dollara yaxın, daxili borcunun istiqrazlar üzrə 1 milyard dollar təşkil etdiyini bildirib (üst-üstə 7 milyarda yaxın). "Mərkəzi Bankın borcu təxminən 511 milyon dollardır. Yerdə qalanlar isə xarici borcdur. Mərkəzi Bankın borcunu çıxmaq şərtilə hökumətin borcu ölkənin ümumi daxili məhsulunun 50%-ni təşkil edir. Ümumi borc isə ümumi daxili məhsulun təxminən 55%-i (!!-red.) həcmindədir", - deyə nazir qeyd edib. Bu, illik büdcəsi cəmi 2,6 milyard dollar olan (2017) Ermənistan üçün olduqca böyük rəqəmlər hesab edilir. Öz növbəsində, Ter-Petrosynın başçılıq elədiyi müxalif Ermənistan Milli Konqresinin katibi Aram Manukyan Sarkisyan klanını nəzərdə tutaraq deyib: "Müharibə və korrupsiya bir-biri ilə əlaqəlidir. Təsadüfi deyil ki, korrupsiyalaşmış ölkələrin birinci onluğuna müharibə aparan ölkələr daxildir. Çünki generallar müharibədən öz məqsədləri üçün istifadə edirlər. O ki qaldı guya Qarabağ məsələsinin iqtisadiyyatımıza təsir etməməsi iddiasına, müharibə iqtisadiyyatı ehtiva edir".

Bu arada ABŞ-ın Ermənistandakı səfiri Riçard Millz yerli nəşrə müsahibəsində işğalçı ölkəyə, faktiki olaraq, xəbərdarlıq xarakterli açıqlama verib. Diplomat bildirib ki, heç olmasa, ticari əlaqələr üçün Ermənistan-Türkiyə sərhədləri açılmayınca, Ermənistanın öz potensialını bütünlüklə açması mümkün olmayacaq. Onu da qeyd edək ki,



amerikalı səfir də gözəl bilir ki, türk-erməni sərhədi yalnız bir halda açıla bilər: Dağlıq Qarabağ məsələsində Azərbaycanı qane edən real irəliləyiş olduqda. Qarabağ probleminin öz problemi sayan rəsmi Ankara bununla bağlı dəfələrlə açıq və birmənalı mövqe bildirib. Deməli, amerikalı səfir erməni tərəfinə anladıb ki, inkişaf eləmək, sərhədləri və kommunikasiyaları açıq görmək istəyirsinizsə, izolyasiyadan çıxmağı arzu edirsinizsə, o zaman Dağlıq Qarabağ konflikti ilə bağlı pozitiv mövqe tutun, öncə Azərbaycanla anlaşın. Qısası, atı arabanın arxasından açıb qabağa bağlayın.

## Naira Zoqrabyan: "Ermənistan iqtisadiyyatında indiyə qədər hansısa nikbin ipucu yoxdur"

"Çiçəklənən Ermənistan" Partiyasının sədri Naira Zoqrabyan etiraf edib ki, Ermənistan iqtisadiyyatı çox ağır vəziyyətdədir. Deputatın sözlərinə görə, Ermənistanda inkişafın qeydə alındığı bir sahənin adını belə çəkmək çətindir: "Ola bilsin, çox ağır vəziyyətdə olan ölkə iqtisadiyyatında irəliləyiş əldə etmək üçün lazımı qədər vaxt keçməyib. Lakin indiyə qədər hansısa nikbin ipucu olmalı idi. Təəssüflər olsun ki, ictimai mühitdə nikbinlik yoxdur" - Zoqrabyan vurğulayıb.

## Politoloqlar: "Sarkisyan iqtidarı bu yanlış hesablama ilə heç nəyə nail ola bilməyəcək"

Ermənistan iqtisadiyyatı Azərbaycanla münaqişədə olduğu son 25 ildə daha da geriləyib, ölkənin aparıcı sənaye infrastrukturu xarici dövlətlərin əlinə keçib. Demək olar ki, Ermənistan siyasi hakimiyyətinin daha sosial layihələri həyata keçirmək üçün satmağa hansısa "obyekti" yoxdur...

Daxili istehsal, rəqabətlilik olmadığı üçün büdcəni formalaşdıran vergi daxilolmaları günü-gündən azalır. Ermənistan əhalisi maddi sıxıntılar səbəbindən, ölkəni tərk edir. Erməni mətbuatının yaydığı məlumata görə, ötən ilin aprel döyüşləri zamanı Qarabağda öldürülən əsgər Qriqor Arutyunyanın anası ikinci oğlunu hərbi xidmətə göndərməkdən imtina edib. Xəbərdə qeyd edilir ki, Anait Qriqoryan ikinci oğlu Seryojanın ailənin yeganə çörək gətirəni olduğunu bildirərək, onu orduya verməyəcəyini deyir: "Nəticədə, mən ərizə yazdım ki, oğlumu hərbi xidmətə göndərməkdən imtina edirəm. Müdafiə naziri güzəştə getməlidir və oğlumu hərbi xidmətdən azad etməlidir, çünki onun atası yoxdur, biz ağır vəziyyətdə yaşayırıq".

Göründüyü kimi, sosial problemlər məngənəsində boğulan Ermənistan əhalisi artıq Sarkisyanın hakimiyyətini qəbul etmir və buna öz etirazını bildirir. Elə bu səbəbdəndir ki, Ermənistan rəhbərliyi, təmas xətti azlıq edirmiş kimi, indi də Azərbaycan-Ermənistan sərhədində təxribatlara əl atır. Çünki anlayırlar ki, Azərbaycanın hərbi qüdrəti xeyli artıb və biz onları süpürüb torpağımızdan kənara ata bilərik. Ermənilərin ümidi bir tərəfdən Rusiyanın himayəsinə, digər yandan isə təmas xəttinə müşahidəçilər, araşdırma missiyası yerləşdirməklə özlərini sığortalamağa qalıb. Ermənistanın indiki iqtidarı Azərbaycan torpaqlarını işğal, azərbaycanlılara qarşı soyqırımı törətməklə Yerevanda hakimiyyəti zəbt edib və bundan özlərinin varlanmaları üçün istifadə edirlər. Belə olan halda, təbii ki, xalqın sosial problemlərdən diqqətini yayındırmaq üçün onların hərbi vəziyyətdən istifadə etmələri də heç kimə sirr deyil".

Beləliklə, bütün bunlardan belə bir nəticəyə gəlmək olar ki, Ermənistanın dünya standartları səviyyəsində istehsal imkanlarının olmaması, Azərbaycan torpaqlarını işğal etdiklərinə görə xarici bazarlara çıxış üçün nəqliyyat yollarının bağlı qalması, silahlanmaya ayırdıqları vəsait ölkənin iqtisadi və sosial inkişafı qarşısında ən ciddi maneələrdir. Bu maneələr, Ermənistan hökumətinin iddia etdiyi kimi, dinamik deyil, statikdir və son 25 ildir həll edilməyib.

**A.SƏMƏDOVA**



# Tarix həqiqətin aynasıdır

**RƏFİQƏ**

***Səbəbsiz yerə deyilməyib ki, tarix həqiqətin aynasıdır. Bu gün milli xəyanətkarlar bilməlidirlər ki, tarix özü hər şeyi zaman-zaman süzgəcindən keçirərək, sübut edir. Necə ki, AXCP sədri Əli Kərimli və "Milli Şura"nın sədri Cəmil Həsənli kirli vasitələrlə, elə zənn edirlər ki, növbəti ildə keçiriləcək prezident seçkilərində dövlətçilik maraqlarımıza qarşı təxribatçı planlar üzərində işləyib siyasi uğur qazanacaqlar. Bu satqınlar öz çirkin əməlləri ilə cəmiyyətdə ifşa olunmaqla, ermənilər kimi düşmənçilik mövqelərini aşkar şəkildə üzə çıxarır. Söz yox ki, ölkə müxalifəti yalnız AXCP və "Milli Şura"dan, Müsavatdan ibarət deyil.***

Dağıdıcı müxalifət Azərbaycanın imicinə xələl gətirmək məqsədilə xarici ölkələrdə də dövlətimizin əleyhinə aksiya keçirməyə cəhd göstərir. Amma fakt budur ki, bu cür aksiyalara heç vaxt iştirakçı yığa bilməyiblər. O zaman sual olunur ki, xaricdə müxalifət niyə aksiya keçirmək istəyir? Bəllidir, çünki onların "siyasi mühacir" adı ilə pul alıb xaricə göndərdikləri şəxslər, əslində, siyasətlə maraqlanmayan, yalnız xaricə köçmək istəyənlərdən ibarətdir.

## Rəzil müxalifətin aşkar sifəti

Nəhayət, bu gün başdan-ayağa yalan və ziddiyyətlə dolu düşərgədə yenə də rəzil müxalifət keçmişdən qalan xarakterik xüsusiyyətini qabartmaqda davam edir. Yeni bir partiyanın təmsilçiləri digərlərini həzm edə bilmirlər. Elə bu günlərdə Müsavatla AXCP arasında baş verən dartışma da deyilənlərə sübutdur. Dartışmaya səbəb keçirmək istədikləri mitinq zamanı birinin o birindən daha çox qrant alması ilə bağlı olub. Nəticədə gülünc bir mənzərə ortaya çıxır. Deməli, bir zamanlar onların "Milli Şura" ətrafında bir yerdə olması da gözdən pərdə asmaq üçün oyun idi. Bu yolla onlar xarici qüvvələrdən hansı təminatlar ala, nələr qopara biləcəkləri haqqında düşünürdülər. Nəticədə, bu iki təşkilatın bir-birinə nə qədər nifrət etdiyinə bir daha şahid olduq. Təkzibedilməz fakt budur ki, antiazərbaycançı, ermənipərəst xarici dairələrin "beşinci kolon"u kimi çıxış edənlər, nə edirlər-etsinlər, heç vaxt cəmiyyətin rəğbətini qazana bilməyəcəklər. Odur ki, dağıdıcı müxalifətdən yeni nəsə gözləmək, sadəcə, sadəlövhlük olardı və yarıtmaz müxalifətin isə yeri siyasi məzarlıqdır.

# Ötən ay miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulması ilə bağlı 2837 qərar qəbul edilib



Azərbaycanda miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən həyata keçirilən tədbirlər ötən ay ərzində də davam etdirilib. DMX-dən AZƏRTAC-a bildiriblər ki, cari ilin avqustunda Bakıda, həmçinin respublikanın digər şəhər və rayonlarında keçirilən tədbirlər və aparılan araşdırmalar nəticəsində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının miqrasiya sahəsində, o cümlədən inzibati qanunvericiliyin tələblərini pozmaları ilə bağlı 2837 qərar qəbul edilib. Onlardan 272-si ölkə ərazisində yaşamaları leqallaşdırılma, 1375-i ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmamaqla, 969-u isə ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla inzibati cərimə tətbiq olunması, 197-si Miqrasiya Məcəlləsinin 16.1.8-ci maddəsinə əsasən (şəxs miqrasiya qanunvericiliyini pozduğuna görə son üç il ərzində iki dəfə və ya daha çox inzibati məsuliyyətə cəlb olunduqda) ölkə ərazisinə gəlişinin məhdudlaşdırma, 24-ü müvəqqəti və daimi yaşamaq üçün sənədin yeni sənədlə əvəz edilməsi isə ilə bağlı olub.

Ümumiyyətlə, ötən ay ərzində DMX-yə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə müvəqqəti olma müddətlərinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin alınması, vətəndaşlığa qəbul, xitam, bərpa, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, həmçinin əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin alınması və mövcud iş icazələrinin müddətlərinin uzadılması ilə bağlı 7181 müraciət daxil olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib.

Hesabat dövrü ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 113 min 982 əcnəbi və vətəndaşlığı olmayan şəxsin müraciəti qeydə alınıb. Ay ərzində DMX tərəfindən bir maarifləndirmə tədbiri və bir səyyar xidmət təşkil edilib. Həmçinin Beynəlxalq Sülh Günü münasibətilə Qusarda, Zaqatalada və Lənkəran Dövlət Universitetində rayon ictimaiyyətinin iştirakı ilə "Azərbaycan dövlətinin yeritdiyi sülhsevər siyasət və bu siyasətin miqrasiya prosesinin tənzimlənməsinə təsiri", "Miqrantların hüquqlarının müdafiəsi Dövlət Miqrasiya Xidmətinin vəzifələrindən biri kimi" və "Miqrantların cəmiyyətə inteqrasiyası" mövzularında tədbirlər keçirilib.

# Əli Kərimlinin qohumları Saatlıdan Bakıya gəlir

## *Nuhəli Kərimov: "Xalq Əli Kərimlini cəzalandırmamışdan əvvəl, biz özümüz onu kəndə aparıb cəzalandırmaq istəyirik"*

***Bu gün cəmiyyətdə birmənalı mövqe ondan ibarətdir ki, dağıdıcı müxalif ünsürlər satqın və xəyanətkardırlar. Bunu sübut etmək üçün kifayət qədər tutarlı faklar da mövcuddur. Təkcə bir faktı qeyd etmək lazımdır ki, erməni lobbisinin yer aldığı qərəzli beynəlxalq təşkilatların Azərbaycan haqqında şər və böhtan xarakterli hesabatları dağıdıcı müxalifətin "donos"ları əsasında hazırlanaraq yazılır.***

Milli və dövlətçilik maraqlarını satmaqla özlərinə xarici ölkələrdə mülklər alan, övladlarını müxtəlif xarici ölkələrin təhsil ocaqlarında oxutduran həmin satqın və xəyanətkar dağıdıcı müxalif ünsürlər son günlər bir qədər fəallaşıblar. Səbəb 2018-ci ildə keçiriləcəyi gözlənilən prezident seçkiləri ilə bağlı olsa da, başlıca amil ölkədəki mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsindən, iqtisadi inkişafın yüksəlməsindən, beynəlxalq arenada Azərbaycanın yerinin və rolunun güclənməsindən ciddi narahatcılıq keçirmələridir. Bu baxımdan, hər vəchlə çalışırlar ki, uğurlara kölgə salsınlar, nailiyyətlərə qara yaxsınlar. Təbii ki, xarici himayədarlarının sifarişləri, göstərişləri və planları əsasında. Məhz müxalifətin sentyabrın 23-də keçirməyi planlaşdırdığı aksiyanın sifarişi də xarici maraqlı dairələr tərəfindən verilib. AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı və onların zombilləşmiş ətrafları sosial şəbəkələrdə mitinqin ən azı baş tutması üçün geniş təbliğat işi aparırlar. Hətta səviyyələrinə və xislətlərinə uyğun olaraq mitinqlərə qoşulmayan müxalifətçilər arasında söyüş də qoyurlar. Söhbət etdiyimiz müsahibimiz, kərimovlar nəslinin ağsaqqalı, tanınmış ziyalı, "Azərbaycan fermeri" qəzetinin baş redaktoru Nuhəli Kərimov "Səs"in müxbiri ilə söhbətində əmisi oğlu Ə.Kərimlinin milli və dövlətçilik maraqlarına zidd əməllərindən xəcalət çəkdiklərini bildirdi: "Bu rüsvayçılığa son qoymaq üçün kərimovlar nəslinin ağsaqqalları Bakıya getmək fikrindəyik. Xalq Ə.Kərimlini cəzalandırmamışdan əvvəl, biz özümüz onu kəndə aparıb, cəzalandırmaq istəyirik. Uşaq vaxtı kənddən çıxıb Bakıya gəldiyi üçün onun-bunun əlinə düşdüyündən, zay olub gedib. Kərimovlar olaraq, biz Ə.Kərimlini islah etmək fikrindəyik".



N.Kərimov onu da bildirdi ki, söyüş qoymaqla, insanları mitinqə cəlb etmək mədəniyyətsizliyin və əxlaqsızlığın nümunəsidir: "Təbii ki, söyüş söymək, qaba hərəkətlərə yol vermək, mədəniyyətsiz hərəkətlər etmək ancaq küçə təfəkkürlü müxalif ideoloqlara xas ola bilər. Özünü cəmiyyətdən tədric etmiş Ə.Kərimlinin mitinq planlaşdırması yalnız gülüş doğura bilər. Çünki heç bir sosial dayağa malik ola bilməyən Ə.Kərimlinin aksiyasının baş tutacağı heç cür inandırıcı deyil. Haqlı olaraq cəmiyyət onu və onun kimilərini məsxərəyə qoyaraq gülür".

N.Kərimlinin sözlərinə görə, dağıdıcı müxalifətin, o cümlədən, Ə.Kərimlinin pozuculuq aktlarına meyil göstərməsinin arxasında anti-Azərbaycan mövqeli qüvvələr dayanır: "Ə.Kərimli bizim nəsildən olan insanları da aldadaraq, AXCP-nin saxta partiya biletlərini verməklə onları Fransada, Hollandiyada və Almaniyada yerləşdirib. Mühacir biznesi onun gəlir mənbəyinə çevrilib. Amma xaricə göndərilən ağılsız qohumların bəziləri telefon əlaqəsi saxlayaraq aldadıldıqlarını, yanlış təbliğata uyduqlarını bildirir və bizdən kömək istəyirlər. Ancaq bizlər satqın və xəyanətkar imici qazanmış Ə.Kərimlinin toruna düşərək, xaricə üz tutan qohumların kömək üçün müraciətlərini rədd edirik. Hətta bizlər Ə.Kərimli kimi onları da qohumluq siyahısından çıxarmışıq".

Kərimovlar nəslinin ağsaqqalı onu da bildirdi ki, Ə.Kərimli xarici ağaların qarşısında nökərçilik etməklə pul qazanmaq və bununla da gün-güzaranlarını bir qədər də yaxşılaşdırmağa çalışır: "Xalqını, vətənini satmaqla uşaqlarını xaricdə oxutmaq, özünə təmtəraqlı yaşayış qurmaq nifrət və hiddətə layiqdir. Haqlı olaraq da xalq Ə.Kərimlini ittiham edir. Biz də Kərimovlar nəsli olaraq, onu bəd əməllərinə görə bağışlamaq fikrində deyilik. Ona görə də, Bakıya gəlib, onu kəndə aparıb cəzalandırmaq fikrində qətiyik". N.Kərimovun sözlərinə görə, dağıdıcı müxalifətin planlaşdırdığı aksiyalar və digər pozuculuq aktları iflasa uğrayacaq. Çünki cəmiyyət birmənalı şəkildə onları rədd edir: "Əminliklə demək olar ki, növbəti il keçirilməsi planlaşdırılan prezident seçkilərində müxalifətin növbəti dəfə acınacaqlı məğlubiyyətə uğrayacağı şübhəsizdir. Baxmayaraq ki, müxtəlif beynəlxalq təşkilatlar onlara maddi və mənəvi dəstək göstərirlər. Ancaq onların özlərinin liderləri demişkən, pul qoyub pul götürmək olar, amma pul qoyub, siyasətdə uğur əldə etmək mümkün deyil. Azərbaycan cəmiyyəti öz sözünü hələ 1993-cü ildə deyib. Yəni 2018-ci il prezident seçkilərində də xalq tərəqqiyə, inkişafa, sabitliyə - Ümummilli Lider Heydər Əliyev yoluna səs verəcək".

***İ.ƏLİYEV***

# Xəbərdarlıq: Bəzi bölgələrdə duman olacaq

***Azərbaycanda sentyabrın 20-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava yağmursuz olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun Abşeron yarımadasında gecə 19-22°, gündüz 30-35° isti, Bakıda gecə 20-22°, gündüz 33-35° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 763 mm civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 35-40 faiz təşkil edəcək.***



Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 31-36° isti, dağlarda gecə 11-16°, gündüz 21-26° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 32-37° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 21-26° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-19°, gündüz 30-35° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 28-33° isti, dağlarda gecə 8-13°, gündüz 21-26° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 31-36° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-18°, gündüz 28-33° isti, dağlarda gecə 9-14°, gündüz 22-27° isti olacağı gözlənilir.

# Avtomobillərin havaya buraxdığı zərərli qazlar hər il Avropada beş mindən çox insanın həyatına son qoyur



Avtomobillərin havaya buraxdığı zəhərli qazlar hər il Avropada minlərlə insanın vaxtsız vəfatına səbəb olur. AZƏRTAC xəbər verir ki, bu barədə "Environmental Research Letters" adlı ixtisaslaşmış jurnalda araşdırmalar əsasında məqalə dərc edilib. Məqalədə qeyd edilir ki, emissiyalarla bağlı istehsalçıların təqdim etdiyi saxta göstəricilər hesabını, ilk növbədə, sadə insanlar ödəməli olur. Belə ki, hər il dizel mühərrikli avtomobillərin havaya buraxdığı zərərli qazlar Avropada beş mindən çox insanın vaxtsız vəfat etməsinə səbəb olur.

Tədqiqatçılar əsas problemin Avropa ölkələrində dizel mühərriki ilə işləyən avtomobillərin dövlət tərəfindən subsidiyalarla və vergi güzəştləri ilə təşviq olunmasında görürlər. Enerji tutumu yüksək olan dizel avtomobillərinin sayı Avropada 100 milyon ədəddən artıqdır və bu, dünyanın digər ərazilərində olan dizel avtomobillərinin toplam sayından iki dəfə yüksəkdir. Eyni zamanda, dizel avtomobillərin reklamı zamanı emissiyalarla bağlı laboratoriya göstəriciləri müştərilərə təqdim olunur, bu isə real yol göstəricilərindən 4-7 dəfə aşağı olur. İstehsalçıların emissiyalarla bağlı saxta göstəriciləri Avropada benzin mühərrikli avtomobillərlə müqayisədə dizel avtomobillərinin cəlbediciliyini artırır. Havada azot oksidlərinin normadan artıq olmasından ən çox əziyyət çəkən ölkə İtaliyadır. Burada hər il 1250 nəfər zərərli qazların təsirindən dünyasını dəyişir. Sonrakı yerlərdə isə Almaniya (960 nəfər) və Fransa (680 nəfər) gəlir.

# "Arşın mal alan" filmi Serbiyanın paytaxtında nümayiş olunub

Sentyabrın 18-də dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günü münasibətilə Belqrad Etnoqrafiya Muzeyinin kino zalında 1945-ci ildə çəkilmiş "Arşın mal alan" filminin Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş rəngli versiyası nümayiş olunub. AZƏRTAC xəbər verir ki, filmin nümayişi Azərbaycanın Serbiyadakı səfirliyi və Mədəniyyət Mərkəzinin təşəbbüsü və dəstəyi ilə reallaşdırılıb. Filmin nümayişində Belqraddakı diplomatik korpusun və Serbiya ictimaiyyətinin nümayəndələri iştirak ediblər.



Tədbirdə çıxış edən Azərbaycanın Serbiyadakı Mədəniyyət Mərkəzinin direktoru, professor Zərifə Əlizadə izləyicilərə Üzeyir Hacıbəylinin yaradıcılığı haqqında məlumat verib. Dahi bəstəkarın müsəlman şərqində ilk operanın müəllifi, eləcə də Azərbaycan dövlət himinin müəllifi olduğunu vurğulayıb. Bildirib ki, dahi bəstəkarın doğum günü Azərbaycanda Milli Musiqi Günü kimi qeyd olunur. Film böyük maraqla qarşılanıb.

TƏRS BAXIŞ

# Söyüş qoyub mitinqə dəvət etmək yalnız Əli Kərimlinin “ideyası” ola bilər

*Bu, eləcə də AXCP sədrinin ambisiyası ətrafında cərəyan edən əsl rüsvayçılıq gerçəkliyinin göstəricisidir*



***Bəlli olduğu kimi, AXCP və “Milli Şura” cütlüyü növbəti dəfə aksiya keçirmək fikrinə düşüb və maraqlısı da budur ki, oradakılar bəri başdan həmin aksiyalarının uğursuzluqla nəticələnəcəyinin fərqinə varmağa başlayıblar.***

Əbəs deyil ki, cəbhəçilərin sədri Əli Kərimli “facebook”dakı zombi dəstələrinə onun tərəfindən keçirilməsi planlaşdırılan mitinqə gəlməyənləri söyməyi tapşırıb. Daha dəqiq desək, zombilər müxtəlif təhqiredici ifadələri işə salaraq, özlərinə süni dəstək qazanacaqlarına ümid edirlər. Misal üçün, aksiyaya qatılmayacaq insanları “peysər”, “şərəfsiz”, “qeyrətsiz” adlandıran kərimovçular bu tərbiyəsizlik vasitəsilə nə qədər rəzil ünsürlərdən ibarət toplum olduqlarını təsdiqləyirlər.

## “Möhtəşəm mitinq” elanından sonra meydana hansı elektoratla çıxmaq kimi ağır işin qarşısında çarəsiz qalan cəbhəçilərin sədri “söyüş maşını”nı işə salmaqdan başqa çarə tapa bilmir

Digər tərəfdən, daha bir maraqdoğurucu məsələ mitinqə adam gətizdirmək tapşırığıdır ki, bu, ilk növbədə, Kərimlinin və ətrafındakılarının nə qədər bacarıqsız olmasından xəbər verir. Yəni hətta AXCP sədrinin zombi dəstələri özləri ilə adam gətirsələr belə, həmin adamların, ümumiyyətlə, ictimai-siyasi proseslərdən bixəbər olduqlarını, Ə.Kərimlinin oyunbazlığının güdazına getdiklərini demək mümkündür. Bu, eləcə də Kərimlinin ambisiyası ətrafında cərəyan edən əsl rüsvayçılıq gerçəkliyinin göstəricisidir. Çünki Ə.Kərimlinin sosial şəbəkələrdə “söyüş lobbisi”nin, “söyüş maşını”nın olduğu heç kəsə sirr deyil. İndi edilən “möhtəşəm mitinq” elanından sonra meydana hansı elektoratla çıxmaq kimi ağır işin qarşısında çarəsiz qalan cəbhəçilərin sədri “söyüş maşını”nı işə salmaqdan başqa çarə tapa bilmir.

## Cəmil Həsənli Əli Kərimlinin “siyasi karyerasında” boş və pis qoxulu hava olaraq, sadəcə, iylənməklə məşğuldur

Sonuncu maraqlı məqam isə AXCP sədri Ə.Kərimlinin özünü “Milli Şura”nın sədri kimi aparmasıdır. Daha dəqiqi, bu ölü qurumun sədrinin Cəmil Həsənli olmasına baxmayaraq, Ə.Kərimlinin ortada var-gəl etməsidir. Bu isə, bir daha isbat edir ki, C.Həsənli bu qurumda, sadəcə, “qoca professor” rolunu oynayır və siyasi kuklalıqdan başqa bacardığı bir iş yoxdur. Yəni hazırda, “Milli Şura”nın idarəçiliyi sədrdə deyil, AXCP rəhbərindədir. C.Həsənli Ə.Kərimlinin “siyasi karyerasında” boş və pis qoxulu hava olaraq, sadəcə, iylənməklə məşğuldur.

Beləliklə, fakt budur ki, nə Kərilmli, nə də onun söyüş zombiləri nəzərlərində tutduqları aksiyalarının istədikləri şəkildə baş tutacağına heç özləri də inanmırlar.

**Rövşən NURƏDDİNOĞLU**

# Donub-açılanlar...

*Yaxud seçkilərdən-seçkilərə yada düşər xatirələr*

***Müxalifət düşərgəsində mövcud olan çoxsaylı birlik və əməkdaşlıq mərkəzlərinin ildə bir-iki dəfə bir araya gələrək, mediada reklam olunmaq xətrinə “poz” verməli, artıq bir ənənəyə çevrilib. Bir qovluq və bir sədrdən ibarət olan siyasi təşkilatlar belə, bu kimi birliklərdə təmsil olunurlar ki, onların “siyasi fəaliyyətləri” ən azından informasiya saytlarında və qəzetlərdə dərc edilsin. Ancaq fakt budur ki, belə “fəaliyyətlərin” nə ictimai rəyə, nə də ki, ölkədə cərəyan edən müxtəlif proseslərə heç bir səmərəsi, təsiri, ümumiyyətlə yoxdur.***



Hələ ötən prezident və parlament seçkilərində yaradılan bir çox qurumlar var ki, hazırkı dövrdə onların nə fəaliyyətləri, nə də digər siyasi maraqları gündəmdə görünmür. Lakin maraqlı cəhətlərdən biri də budur ki, ötən seçkilərdən sonra uzağı daha bir neçə ay fəaliyyət göstərib, axırda fəaliyyətlərini dondurduqlarını deyən bəzi müxalifət partiyaları növbəti seçkilər ərəfəsində təzədən fəaliyyətə başladıqlarını iddia edir, bununla özlərini gülünc vəziyyətə qoyurlar.

## Heç bir siyasi təsirə malik olmayan bənzər partiyaların bu qədər “ciddi” və “təkəbbürlü” bəyanatlar səsləndirmələri onların aşkar zəifliklərindən irəli gələn bir haldır

Məsələn, “Siyasi Partiyaların Əməkdaşlıq Mərkəzi”ndə yığışıb, ortaya heç bir normal siyasi baxış qoya bilməyən “cırtdan” müxalifət partiyaları kimi. Daha doğrusu, bu dəfə də eyni hal təkrarlanıb və Klassik Xalq Cəbhəsi Partiyasının qərargahına toplaşan “Aydınlar” partiyasının sədri Qulamhüseyn Əlibəyli, “Azadlıq” partiyasının sədri Əhməd Oruc arasında keçirilən görüşdə “Siyasi Partiyaların Əməkdaşlıq Mərkəzi”nin fəaliyyətinin bərpası qərara alınıb. Əslində, bu amilin özü istər-istəməz istehzalı münasibət yaradır. Daha dəqiq desək, heç bir siyasi təsirə malik olmayan bənzər partiyaların bu qədər “ciddi” və “təkəbbürlü” bəyanatlar səsləndirmələri onların aşkar zəifliklərindən irəli gələn bir haldır. Belə olmasaydı, həmin “mərkəzdə” daha öncə fəaliyyət göstərmiş digər bir neçə partiya uzaqlaşmazdı.

## Qətiyyətsiz və iradəsiz olanların isə heç vaxt ciddi təsir imkanları və cürətləri olmayıb

Ümumiyyətlə, parçalanmış və müxtəlif hissələrə bölünərək, ayrı-ayrılıqda müxalifətçilik edən təşkilatlar bundan artıq irəli getmək iqtidarında deyillər. “Milli Şura”, “MSDM”, “Antiböhran Koalisiyası” və sair adları olub, özləri olmayan təşkilatların siyasi ölüm saatları çoxdan yaxınlaşsa da, onlar bunu nə dərk, nə də qəbul edirlər. Reallıqla barışmaq da siyasətdə uğur sayılır. Əlbəttə ki, onlara belə uğur qazanmaq sərf etmir və bundan sonra da etməyəcək. Çünki həqiqəti etiraf etmək üçün güclü siyasi iradəyə və qətiyyətə malik olmaq şərtdir. Qətiyyətsiz və iradəsiz olanların isə heç vaxt ciddi təsir imkanları və cürətləri olmayıb.

**R.RƏSULOV**

# Müxalifət düşərgəsində “qısa qapanmalar” hökm sürür

*Teyyub Qənioğlu: “Müxalifət üçün tunelin sonunda heç bir işıq yoxdur”*

***Daxili çəkişmələr və partiyalararası qarşıdurmalar müxalifət düşərgəsində həlli mümkün olmayan ciddi problemlər yaradıb. Siyasi analitiklərin də qeyd etdikləri kimi, müxalifətin böhranlı vəziyyətdən çıxması qeyri-mümkün görünür. Mövcud reallıqlara baxmayaraq AXCP, Müsavat kimi dağıdıcı qaragüruhçular, müxtəlif çirkin vasitə və üsullardan, o cümlədən, pozuculuq aktları törətməklə ən azı gündəmdə qalmağa, mətbuatın diqqət mərkəzinə çevrilməyə çalışırlar.***

“Təkamül” partiyasının sədri Teyyub Qənioğlu “Səs” qəzetinə açıqlamasında bildirdi ki, bu iki partiya yaranan gündən bu günə qədər heç vaxt bir-birləri ilə yola getməyiblər və bundan sonra da bir araya gəlmələri reallığı özündə əks etdirmir: “Elektrik enerjisinin müsbət və mənfi tərəfləri var və onları birləşdirmək mümkündürmü? Əlbəttə, mümkün deyil. Yəni müsbət və mənfi tərəfləri birləşdirən kimi, qısa qapanma yaranır və partlayış törəyir. Yəni Müsavatla AXCP elektrik enerjisinin iki tərəfidir, biri müsbət, digəri mənfi. Onlar birləşəndə, qısa qapanma əmələ gəlir. Bu baxımdan da, hər hansı bir məsələ ilə bağlı olaraq, AXCP ilə Müsavatın bir araya gəlməsi mümkün deyil”.



T.Qənioğlu onu da bildirdi ki, xaric qüvvələrin təsiri nəticəsində radikal müxalifət düşərgəsini təmsil edən şəxslər müəyyən maliyyə vəsaitini əldə etmək xatirinə, müvəqqəti olaraq, bir araya gəlirlər. Elə ki, proseslər qurtardı bir-birilərini qurşaqdan aşağı ağrıdoğurucu zərbələr endirirlər: “Yəni əgər radikal müxalifətə xaricdən güclü maliyyə dəstəyi göstərilsə, az müddətdə olsa birləşəcəklər. Amma hər zaman olduğu kimi sonradan birləşdikləri həmin birlikdən ayrılacaqlar”.

T.Qənioğlu sonda onu da bildirdi ki, müxalifət üçün tunelin sonunda heç bir işıq yoxdur ki, onlar hakimiyyətə gəlsinlər: “Belə ola halda da, onlar öz partiyalarında birincilik uğrunda bir-biriləri ilə mübarizə aparmağa başlayır və bunun üçün də bir-birilərini sıradan çıxartmaq üçün əllərindən gələni edirlər. Bunu da xarici qüvvələrə göstərməklə, özlərini həmin xaricilərə reklam edirlər. Amma həmin xarici qüvvələrin özləri daha çox bilirlər ki, ciddi bir iş görmək üçün potensial gücləri yoxdur. Amma havadarları bu reallığı bildikləri halda, yenə də radikal müxalifəti maliyyələdirirlər. Artıq radikal müxalifət adət edib ki, ölkədə nə isə bir seçki keçirilən kimi özlərini ortalığa atsınlar və bununla da, bir müddət gündəmdə qala bilsinlər. Ancaq dərk olunmalıdır ki. əgər siyasi fəaliyyətdə dövlətin, millətin, xalqın marağını, şəxsi və partiya maraqlarından üstün tutacaqsansa, uçurum sənin və partiyanın yaxınlığında peyda olacaqdır. Bu baxımdan, yaxşı olardı ki, onlar fəaliyyətlərində ciddi dəyişikliklər etsinlər, dövlətə və milli maraqlara əsaslanan siyasət yürütsünlər”.

**GÜLYANƏ**

# Azərbaycan mədəniyyətinə mədəni təsirlər

***Müasir dünyada bütün mədəniyyətlər qarşılıqlı təsir şəraitində inkişaf edir, heç bir sırf və təmiz mədəniyyətə rast gəlinmir.***

Mədəniyyətlərin bir-birinə nüfuz etmələri və qarşılıqlı əlaqələri bu gün dönməz bir prosesə çevrilmişdir. Heç bir xalq başqa mədəniyyəti olduğu kimi qəbul etmir, onu özününküləşdirir, öz milli xüsusiyyətlərinə uyğunlaşdırır. Bunu Azərbaycanın təkrarolunmaz və nadir milli mədəniyyəti də sübut edir. Başqa xalqlardan əxz etdiyi mədəni inciləri Azərbaycan milliləşdirərək onları özünün milli-mənəvi dəyərlər sistemlərinin ayrılmaz tərkib hissəsinə çevirmişdir.

Mədəniyyətlərin qarşılıqlı təsiri və qarşılıqlı zənginləşmələri məsələsinə böyük nəzəriyyəçi və professional tarixçi olan Ümummilli Lider Heydər Əliyev də xüsusi diqqət yetirir.

Heydər Əliyevin qeyd etdiyi kimi, eramızdan əvvəl I minilliyin sonunda, eramızın I minilliyinin əvvəllərində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmış, bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq və dözümlülük mühiti yaranmışdır. Yunan-Roma mədəniyyəti, bütün antik svilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Ulu Öndər Heydər Əliyevin müxtəlif mərhələlərdə zəngin mədəniyyətimizin formalaşmasına zərdüştlüyün, yəhudi, xristian, həm də islam mədəniyyətinin təsir göstərdiyini vurğulayır və qeyd edirdi ki, Azərbaycan müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin və dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir.

Bir mədəniyyətin digər mədəni əsasda inkişafı çox geniş yayılmış tarixi-mədəni hadisədir. Mədəniyyət digər mədəni nailiyyətləri mənimsəməklə əvvəlki inkişaf məcrasından çıxaraq yeni və daha mütərəqqi "məhsul verməyə" başlayır. Qarşılıqlı mədəni mənimsəmələr təkcə unifikasiya və sintez prosesi kimi deyil, həm də müxtəlif şəraitdə yeniliyin yaranması prosesi kimi də qəbul edilməlidir. Başqa sözlə, yeniliyin meydana çıxması və tərəqqi ancaq müxtəlifliklərin mövcudluğu şəraitində mümkündür və əksinə, yekcinsliyin mövcud olduğu, hərəkətin olmadığı şəraitdə inkişafdan və tərəqqidən danışmaq yersizdir.

Bu gün xalqlar və dövlətlər özlərinin mədəni və iqtisadi inkişaf səviyyələrinə görə fərqlənirlər, dünyada mədəni müxtəliflik hökm sürür. Mədəniyyətlərin vəhdəti modernləşməyə səbəb olduğu halda, mədəni yekcinslik və yeni unifikasiya mədəni tərəqqiyə mane olur.

Tədqiqatçı Sevda Əhədova mədəniyyətlərin qarşılıqlı əlaqəsi və təsirlərinin perspektivi baxımından, aşağıdakı ssenarilərin mövcudluğunu qeyd edir:

"1. Simbioz. Minimal qarşılıqlı təsiri nəzərdə tutan bu ssenaridə bir-birindən müəyyən dərəcədə təcrid olunmuş sahələrdə ənənələrin və müasirliyin müxtəlif formalarının nisbətən müstəqil mövcudluğu qorunub-saxlanılır. Qərb bu zaman elmi-texniki, Şərq isə mədəni-humanist əsasların daşıyıcısı kimi çıxış edir.

2. Münaqişəli qarşılıqlı əlaqə, ənənəviliyə qarşı modernləşmə. Bu yanaşma Qərbin üçüncü dünya ölkələrinin sosial-mədəni həyatının təsirini qəti şəkildə rədd edir.

3. Sintez. İnkişaf etməkdə olan ölkələrin özünəməxsusluğunun Qərbin modernləşmə xəttinə uyğunlaşması. Bu prosesdə hər iki əsasın qarşıdurması tədricən aradan qalxmağa başlayır və mədəniyyətin əvvəlki dəyərlərə əsaslanan, ancaq keyfiyyətcə deyişmiş və bütövlükdə, yeni vəziyyəti yaranır.

Bu gün özünəməxsusluq məfhumu müstəqillik, suverenlik və azadlıq məfhumları kimi çox dəbdə olan məfhumdur. Lakin o da etiraf edilməlidir ki, bir sıra hallarda müxtəlif etnik, konfessional birliklərin "özünəməxsusluq" uğrunda mübarizəsi "müstəqillik", "azadlıq" uğrunda mübarizə kimi ağır və qanlı münaqişələrə gətirib çıxarır. Ona görə də, milli fenomenin qabardılması digər birliklərlə qarşıdurmaya gətirib çıxarmamalıdır. Əslində, milli lovğalıq, milli müstəsnalıq, "özünəməxsusluğ"un mütləqləşdirilməsi və mədəni-milli hegemonizm qədər təhlükəlidir. Bu baxımdan da, "özünəməxsusluq" problemi yalnız mədəniyyətlərarası əlaqə, qarşılıqlı anlaşma və dialoq kontekstində öz həllini tapmalıdır.

Sivilizasiyaların, mədəniyyətlərin dinc yanaşı yaşamasına nail olmaq üçün hər bir xalqın öz dini, sosial modelini, həyat tərzini seçmək hüququ və azadlığı tanınmalı, müxtəlif mədəniyyətlər, həyat tərzləri, siyasi sistemlər, dinlər arasında qarşılıqlı hörmət və qarşılıqlı anlaşmaya nail olunmalı, bunun üçün isə mədəniyyətlərin bərabərhüquqlu dialoqu, onların ən dəyərli və mütərəqqi dəyərlərinin azad mübadiləsi və mənimsənilməsi təmin edilməlidir".

Azərbaycan milli mədəniyyəti özünü zənginləşdirmək üçün müxtəlif mədəni elementləri mənimsəməli olur. Belə olduqda, azərbaycanlılar dünyaya daha geniş gözlə baxır, mədəniyyətlərarası və svilizasiyalararası dialoqa girir, başqa mədəniyyətlərə və dinlərə məxsus xalqlarla dinc yanaşı yaşayır, bəşər svilizasiyasının müxtəlifliyinin qorunub-saxlanmasına öz töhfələrini verir, qarşılıqlı hörmət, etimad və inamın möhkəmlənməsini təmin edir. S.Əhədova doğru olaraq yazır: "Bunun üçün digər mədəniyyətin nümayəndələrinə qərəzli münasibət və yanlış təsəvvürlər, yad mədəni dəyərlərin zorla qəbul etdirilməsi cəhdləri, bir mədəniyyətin digərlərindən üstünlüyü haqqında qeyri-humanist fikirlər qətiyyətlə rədd edilməlidir.

Bu gün yenidən dirçəlməsinə ciddi cəhdlər göstərilən "sentrizm"lər, başqa "izmlər", mədəni hegemoniya ilə bağlı iddialar şülhün bərqərar olunmasına deyil, xalqlar arasında nifaqın və etimadsızlığın güclənməsinə xidmət edir.

Hərbi, siyasi, iqtisadi, texnoloji, informativ vasitələrlə, zorakı metodlarla başqa xalqların həyatına müdaxilə etmək və öz həyat dəyərlərini, ideyalarını, təsəvvürlərini onlara zorla qəbul etdirmək cəhdləri müasir dünyada yolverilməz siyasət kimi lənətlənməli və pislənməlidir.

Müxtəlif mədəniyyətlərin nümayəndələri öz dəyərlər, ənənələr sisteminin, həyat tərzinin çərçivələrini aşmağı bacarmalı, qarşılıqlı anlaşma nümayiş etdirməli, bütün bəşəriyyətin gələcəyi naminə qlobal problemləri həll etmək üçün bərabər hüquqlu tərəfdaş kimi dialoqa girməlidir".

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan milli mədəniyyəti özünü zənginləşdirmək üçün müxtəlif mədəni elementləri mənimsəməli olur. Belə olduqda, azərbaycanlılar dünyaya daha geniş gözlə baxır, mədəniyyətlərarası və svilizasiyalararası dialoqa girir, başqa mədəniyyətlərə və dinlərə məxsus xalqlarla dinc yanaşı yaşayır, bəşər svilizasiyasının müxtəlifliyinin qorunub-saxlanmasına öz töhfələrini verir, qarşılıqlı hörmət, etimad və inamın möhkəmlənməsini təmin edir.






*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Dubayda dünyanın ən bahalı qəhvəsi təqdim olunacaq

“Arabian Business” nəşri xəbər verir ki, qəhvəsevərlər sentyabrın 30-da Dubayda dünyanın ən bahalı və dadlı qəhvə sortu olan “Esmeralda Geisha Canas Verdes”dən ləzzət ala biləcəklər. AZƏRTAC xəbər verir ki, “Esmeralda Geisha” qəhvəsinin 15 qramı 250 dirhəmə (68 dollar) satılacaq. Ən bahalı qəhvə sortunun partiyası hərracda rekord qiymətə - kiloqramı 4867 dirhəmə (1325 dollar) əldə edilib. Bəzi məlumatlara görə, qəhvənin qiymətinin bu dərəcədə baha olması, bu növün toxumunun dünyada cəmi 45,5 kq qalması ilə bağlıdır. Qəhvə Al Quoz rayonunun “Seven Fortunes” qəhvəxanasında təqdim ediləcək.




# Dünyada 613 milyon qadın anemiyadan əziyyət çəkir

Birləşmiş Millətlər Təşkilatının (BMT) Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (IFAD), BMT-nin Uşaq Fondu (UNICEF), Dünya Qida Proqramı (WFP) və Dünya Sağlamlıq Təşkilatı (ÜST) tərəfindən hazırlanmış “Dünyada ərzaq təhlükəsizliyi və qidalanma vəziyyəti 2017 hesabatı”na görə, dünyada yetişkinlərin 13 faizi piylənmədən əziyyət çəkir.



Belə ki, 5 yaşdan kiçik 155 milyon uşağın bəstəboy, 52 milyon uşağın son dərəcə zəif, 41 milyon uşağın isə artıqçəkili olduğu təxmin edilir. Hesabatda yetişkinlərdə piylənmənin, qadınlarda anemiyanın ciddi problem olduğu qeyd edilir. Dünyada 641 milyon yetişkin piylənmə ilə üz-üzədir. Qadınların 33 faizi - 613 milyonu qanazlığından əziyyət çəkir. Hesabatda, həmçinin dünyada aclıqdan əziyyət çəkən insanların sayının 815 milyon nəfər olduğu və onların 489 milyonu müharibə bölgələrində yaşadığı qeyd olunub.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika fakültəsinin riyaziyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Nəsibova Sevinc Ədalət qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Cəfərova Günelin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Kiçibəyova Vəfanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici təlim ixtisası üzrə III kurs tədris ilinin tələbəsi Kazımova Nigar Rauf qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin ingilis dili müəllimi ixtisası üzrə III kurs tədris ilinin tələbəsi Məmmədrzayeva Sənubər Nadir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



# Avropa çempionu adını qazanan gənc cüdoçularımız Vətənə qayıdıblar



Sloveniyanın Maribor şəhərində keçirilən gənclər arasında cüdo üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvləri Vətənə qayıdıblar. AZƏRTAC xəbər verir ki, millimizin üzvlərini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Cüdo Federasiyasının rəsmiləri, idman ictimaiyyətinin nümayəndələri, jurnalistlər və idmançıların ailə üzvləri qarşılayıblar.

Cüdoçularımız mötəbər turnirdə 3 qızıl, 2 gümüş və 2 bürünc qazanaraq medalların əyarına görə kişilərin yarışında komanda hesabında birinci olublar. Komanda yarışında da bütün rəqiblərinə qalib gələn millimiz Avropa çempionu adını qazanıblar. Avropa çempionatında ölkəmizi təmsil edən Kəramət Hüseynov (60 kq), Hidayət Heydərov (73 kq), Zelim Kotsoyev (100 kq) qızıl, Rəşxan Baxışəliyev (55 kq), Murad Fətiyev (73 kq) gümüş, Gültac Məmmədəliyeva (48 kq) və Nəzakət Əzizova (52 kq) isə bürünc medallara sahib olublar.




# “AS” nəşri: “UEFA Çempionlar Liqasının finalı üçün Madridi yox, Bakını seçəcək”

İspaniyanın nüfuzlu idman nəşri olan “AS” qəzetində “Vanda Metropolitano” stadionunun UEFA Çempionlar Liqasının 2019-cu ildə keçiriləcək final oyununu qəbul edə bilməyəcəyinin səbəbi” sərlövhəli məqalə dərc edilib. Qəzet yazır ki, ölkənin nüfuzlu idman jurnalistlərindən olan “Ondacero” radiosunun aparıcısı Xose Ramon de la Moreno təqdim etdiyi proqramında bu barədə məlumat verib. Jurnalist bildirib ki, UEFA hələ rəsmi qərarını açıqlamasa da, bu qərarın Bakının, bu şəhərdəki Olimpiya Stadionunun xeyrinə olacağı məlumdur. Bunun səbəbi kimi Madriddəki “Vanda Metropolitano” stadionunda VIP yerlərin cəmi 7 min nəfərlik olması göstərilir. Lakin Bakı Olimpiya Stadionu bu baxımdan daha əlverişlidir.

# Azərbaycan-Çexiya futbol matçının biletləri satışa çıxarılıb

FIFA WORLD CUP RUSSIA 2018

2018-ci ildə Rusiyada təşkil olunacaq futbol üzrə dünya çempionatının seçmə mərhələsi çərçivəsində Bakıda oynanılacaq Azərbaycan-Çexiya matçının biletləri satışa çıxarılıb. AFFA-nın məlumatına görə, qarşılaşma oktyabrın 5-də Bakı Olimpiya Stadionunda keçiriləcək. Matç Bakı vaxtı ilə saat 20:00-da başlayacaq.

Azarkeşlər biletləri “ASAN xidmət” mərkəzləri, Heydər Əliyev Sarayının kassası, “28 Mall”, “Gənclik Mall”, “Park Bulvar” alış-veriş mərkəzləri, Üzeyir Hacıbəyli küçəsi 69x, Həsən Əliyev küçəsi 36, Nobel prospekti 23, “AMAY” ticarət mərkəzinin ikinci mərtəbəsindən, Abbas Mirzə Şərifzadə küçəsi 157, Sülh küçəsi 197, Bülbül prospekti 35 ünvanından və “iTicket” köşklərindən əldə edə bilərlər.

# Karateçilərimiz VIII “Basel Open Masters” turnirində 18 medal qazanıblar



Karate üzrə Azərbaycan milli komandasının üzvləri İsveçrədə keçirilən VIII “Basel Open Masters” turnirində 18 medal qazanıblar. Azərbaycan Milli Karate Federasiyasından AZƏRTAC-a bildirilib ki, medallardan 9-u qızıl, 5-i gümüş, 4-ü isə bürüncdür.

Üç kateqoriya üzrə keçirilən turnirdə fərdi mübarizədə Rəfael Ağayev (-75 kq), Şahin Atamov (+84 kq) və Roman Heydərov (kata), İlahə Qasımova (-55 kq) və İrina Zaretska (-68 kq) çempion olublar. Firdovsi Fərzəliyev (-60 kq), Nuranə Əliyeva (-50 kq) və Fəridə Əliyeva (+68 kq) ikinci, Novruz Əliyev (-75 kq) və Ayxan Mamayev (-84 kq) isə üçüncü pillədə qərarlaşıblar. Açıq turnirdə isə Asiman Qurbanlı (+84 kq) və Fəridə Əliyeva birinci, Ayxan Mamayev ikinci yeri tutub.

Yarışın mükafatçıları arasında keçirilən “Masters” turnirində isə Rəfael Ağayev və İrina Zaretska qızıl, Ayxan Mamayev gümüş, Asiman Qurbanlı və Fəridə Əliyeva isə bürünc mükafat qazanıblar.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**